# *ƏZİZ BACIMA TÖVSİYƏLƏRİM*

**İlahiyyatçı Rövşən Əhmədzadə**

بسم الله الرحمن الرحيم

Kitabın adı.............................. Əziz bacıma tövsiyələrim
Müəllif:.......................... İlahiyyatçı Rövşən Əhmədzadə
Nəşriyyat: ............................ “ООО Типография КЕМ”
Çap tarixi: ............................................................. 2020
Çap növbəsi: ...................................................... Birinci
Tiraj: ..................................................................... 2000

***BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ***

# ÖN SÖZ

Allah-təalanın insanlıq üçün qoyduğu qanunlar Qiyamətə qədər öz aktuallığını qoruyacaq. Əziz Peyğəmbərimizin **(salləllahu əleyhi və alihi və səlləm)** zamanında ümmətin etdiyi günahlar, O Həzrəti narahat etdiyi kimi, bu gün edilən günahlar da Zəmanə Sahibini **(əccələllahu təala fərəcəhuşşərif)** narahat edir. Bəli, həmin gühanlardan biri də **hicabsızlıqdır**.

Bacımın, o cümlədən bir çox Azərbaycan qadınlarının hicabsız olduqları məni də narahat etdiyinə görə onlara hicabın vacibliyini və mahiyyətini necə çatdırmağı düşünürdüm. Öhdəmdə olan bu iki vəzifəni (**yaxşılıqlara dəvət** və **pisliklərdən çəkindirmək)** yerinə yetirmək üçün bacıma və onun timsalında olan qızlara və qadınlara bu kitabçanı tərtib etməyi qərara aldım.

Kitabçada olan mətləblərin bir hissəsi qəlbimin sözləridir. Bəzilərini tərcümə etdim, bəzilərini isə (şerlər, statistikalar) internetdən topladım.

Əgər Allah-təala bu kitabçanı qəbul edib savab yazarsa, onu ilk növbədə Vətən uğrunda canlarından keçən "**şəhidlər"**imizə, həmçinin xalqımızın qeyrətli, igid və şücaətli "**hicab məhbusları**"na və bütün "**iffətli**" xanımlara hədiyyə edirəm.

İlahi! Əhli-beytin **(əleyhimussalam)** xatirinə, bizim yaşayış və ölümümüzü Əhli-beytin **(əleyhimussalam)** yaşayışı və ölümü kimi qərar ver! Bizi bir an belə öz başımıza buraxma və aqibətimizi xeyirlilərdən et!

Moskva - 2020

## *ÖRTÜNMƏK, ABIR-HƏYANIN NİŞANƏSİDİR*

**Qadın! Sənə var Fatimədən böylə nəsihət:**
**"Hifz et hicabı, yox daha bundan baha zinət!"**

Salam olsun, Vətən-qeyrət uğrunda ölən **şəhidlərə**!
Salam olsun, Allaha xatir hər sınağa dözən **möminlərə**!
Salam olsun, iffətini hər şeydən üstün tutan **möminələrə**!
Salam olsun, hicabı anlayıb tövbə edən **xanımlara**!

**Salam əziz bacım!**

Böyük bir qardaş kimi sənə bir sıra tövsiyələrim var. Ümid edirəm ki, məni düzgün başa düşəcəksən. Əgər bu tövsiyələr, sənə müsbət təsir edib qəlbində hicaba qarşı məhəbbət oyadarsa, Allah-təalaya şükür etmiş olaram, yox əgər bunların faydası olmazsa, onda sənin hidayətin üçün dua etməkdən başqa əlimdən bir şey gəlməz.

**Əziz bacım!** Yəqin ki, hicabın "örtünmək" mənasında olduğundan xəbərin var. Bu İlahi əmr - İslam dinimizdə zəruri məsələlərdən sayılır və buna görə də hər bir müsəlman qadın örtünməlidir. İnsanları bütün məxluqatdan (mələklərdən, cinlərdən, heyvanlardan və s.) üstün yaradan Uca Allah, onun həm maddi (zahiri), həm də mənəvi (batini) geyimini vurğulayaraq belə buyurur:

يَا بَنِي آدَمَ قَدْ أَنزَلْنَا عَلَيْكُمْ لِبَاسًا يُوَارِي سَوْءَاتِكُمْ وَرِيشًا وَلِبَاسُ التَّقْوَىَ ذَلِكَ خَيْرٌ ذَلِكَ مِنْ آيَاتِ اللهِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ

**«Ey Adəm övladları, şübhəsiz sizə ayıb yerlərinizi örtəcək və sizin üçün zinət olacaq bir libas (geyim) nazil etdik (onun xammalını torpaqda yaratdıq və sizə onu əldə etmək istedadını verdik). Əlbəttə, təqva libası**

**daha yaxşıdır. Öyüd-nəsihət alasınız deyə, bunlar Allahın nişanələrindəndir**.»[1]

Ayədə buyurulan "təqva libası" - "**həya libası**"na, "**məsuliyyət libası**"na, həmçinin "**vacib əməl**"lərə işarədir. Belə ki, insan öz cismini cürbəcür, rəngarəng geyimlər vasitəsilə istidən və soyuqdan qoruduğu kimi ruhunu da bütün günahlardan və çirkablardan qorumalıdır. O, boynuna düşən vəzifə və məsuliyyətləri düzgün yerinə yetirməlidir ki, pak həyat tərzi ömrünü çiçəkləndirsin və nurlandırsın.[2]

Hicab - əslində İslami kimliyin göstəricisidir.

Hicab - bir ibadətdir. Çünki, bunda Allah-təalanın əmrini yerinə yetirmək var. Deməli, hicab - hər bir müsəlman qadına namaz, oruc, xüms kimi vacib əməllərdən sayılır.

Göz görməsə, könül də istəməz. Nə qədər az görsən, qəlbin də bir o qədər təmiz olar. Buna əsasən də hicab - qəlblərində xəstəlik olanların şəhvətlərinin qarşısını alır.

Hicab - yalnız baş bağlamaqdan və çənəni örtməkdən ibarət deyil. Hicab - əl və topuqdan başqa qalan yerlərin tam olaraq örtülməsi ilə bərabər, bədən cizgilərinin də gizlədilməsi anlamına gəlir. Qurani-Kərim buyurur:

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ

«**Möminə qadınlara de ki, (başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini yumsunlar və öz ayıb yerlərini (üz və əllərindən başqa bədənlərinin hər**

[1] "Əraf" surəsi, ayə 26.
[2] "Təfsire nemune", c. 6, səh.164. Ayətullah Məkarim Şirazi.

**yerini yadların görməsindən) qorusunlar. Həmçinin öz zinətlərini, bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və sairəni, naçarlıqdan öz-özlüyündə) görünən (üst paltarları, əl və üz kimi şeylər) istisna olmaqla, üzə çıxarmasınlar**...»[1]

**Əziz bacım!** Tarixi faktlara əsasən dünyanın əksər millətləri və cəmiyyətlərində **hicab** - qadınlar arasında geniş yayılmış bir geyim forması olmuşdur. Düzdür, zamanla aparılan siyasi ideologiyalar nəticəsində bu geyim müxtəlif dəyişikliklərə məruz qalmışdır, lakin heç bir zaman öz mahiyyətini tamamilə itirməmişdir. Bundan əlavə əgər dünya xalqlarının milli geyim formasına da nəzər salsaq, qadınların hicab geyinmələrini açıq-aşkar müşahidə edə bilərik.

Beləliklə, İlahi dinlər insanın bu batini meylinə və fitrətinə əsasən qadınların örtünməsini vacib bilmiş və bəşər cəmiyyətini bu İlahi fitrətə doğru çağırmışdır. Dövrümüzdə də hicab anlayışı yalnız İslam dini ilə məhdudlaşmır. Başqa dinlərdə və İlahi məktəblərdə, xüsusən yəhudi və xristianlıqda da hicab qadın üçün ən üstün geyim növü olaraq paklıq və iffət əlaməti hesab olunur. Bunu hal-hazırda bir çox dindar yəhudi ailələrində, xristian kilsələrində paklıq və ismət nümunəsi sayılan rahibələrin geyimində və bir çox irfani məktəblərin ardıcıllarının qadın geyim nümunələrində müşahidə edə bilərik.

Hicab - qadının İlahi xilqəti və batini fitrətinə uyğun olan ən kamil geyim forması olaraq, tarix boyu qadın şəxsiyyətinin hifz olunmasına və ona dəyər verilməsinə xidmət etmişdir.

---

[1] "Nur" surəsi, ayə 31.

**Əziz bacım!** Elə bilmə ki, örtünmək yalnız qadınlara aiddir. Xeyr, sadəcə fərq burasındadır ki, kişinin başıaçıq olması icazəli, qadınlarda isə qadağandır. Kişinin hicabı - gözlərini naməhrəmdən yummaq və örtülməsi vacib olan bədən üzvlərini gizlətməkdir. Qadın və kişilərin geyim formalarına qoyulan tələblərin əsas mahiyyəti ondan ibarətdir ki, onlar digərlərin nəzər-diqqətini özünə cəlb etməsin və insanda özünə qarşı ciddi münasibət yaratsın. Başqa sözlə desək, ətrafdakı insanların hüquqlarına təcavüz etməsin.

Əgər kişi və qadın kamil hicaba riayət edərsə, fəsadın da sayı azalar. “Nur” surəsinin 30-cu ayəsində buyurulur:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ

«**Mömin kişilərə de ki, (başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini yumsunlar və ayıb yerlərini (görünməkdən) qorusunlar. Bu, onlar üçün daha pakdır. Həqiqətən Allah, onların etdiklərindən xəbərdardır**.»

Qadın üçün hər şeydən mühüm hicab və iffətdir. O, öz şəxsiyyətini dərk etsə, artıq oyun-oyuncağa və alış-veriş əşyasına çevrilməz. Nəticədə isə öz gözəlliyini çirkin adamların tamaşasından qoruyub saxlayar və yalnız ərinə məxsus olar.

Qadın və kişilər Allah-təalanın dinindən və Əhli-beytin **(ələyhimussalam)** yolundan uzaqlaşdıqca, onlara bəlalar gəlir və cəmiyyətdə pozğunluq yaranır. Kişilər evlənmir, qadınlar ərə getmir. Evlənənlər də, az müddət yaşayıb ayrılırlar. Çünki onların dünyaya məhəbbətləri, Axirət-Cənnət məhəbbətindən daha güclü olur. Bu cür

qadınlar dünyanın keçici bər-bəzəyini və naz-nemətini, Axirətin əbədi həyatından üstün tuturlar. Əri üçün yox, yadlar üçün bəzənib-düzənən qadın, kimə lazımdır?

**Əziz bacım**! Yeri gəlmişkən bir ayənin təfsirinə işarə etmək istərdim. Qurani-Kərim buyurur:

هُنَّ لِبَاسٌ لَّكُمْ وَأَنتُمْ لِبَاسٌ لَّهُنَّ

«**Siz onların, onlar da sizin libasınızdır**.»[1]

Zövcənin libasa oxşadılmasında bir çox incə nöqtələr var**:**

1. Libas - forma, rəng və parça baxımından insana münasib olmalıdır. Zövcə də insanın oxşarı olmalı, onun fikri, əqidəsi, şəxsiyyəti ilə uyğun gəlməlidir.
2. Libas - zinət və aramlıq səbəbidir. Zövcə və övlad da ailədə aramlığın əsasıdır.
3. Libas - insanın eybini örtür. Ər-arvad da bir-birilərinin eyblərini, nöqsanlarını örtməlidirlər.
4. Libas - insanı istidən və soyuqdan qoruyur. Həyat yoldaşı da ailə ocağında istiliyi saxlamalıdır.
5. Libassızlıq - rüsvayçılıqdır. Subaylıq da azğınlıq və rüsvaylıq səbəbi olur.
6. Soyuq havada qalın, isti havada isə yüngül libasdan istifadə olunur. Ər-arvad da bir-birilərinin ruhi ehtiyaclarına münasib əxlaq və rəftarla cavab verməlidirlər. Əgər kişi əsəbidirsə, qadın onunla yumşaq rəftar etməlidir və əgər qadın xəstədirsə, kişi də onunla keçinməlidir.
7. İnsan öz libasını çirkabdan qorumalıdır. Həyat yoldaşları da bir-birilərini günaha batmaqdan hifz etməlidirlər.[2]

---

[1] "Bəqərə" surəsi, ayə 187.
[2] "Nur" təfsiri. Ustad Möhsün Qiraəti.

## *HİCABIN FAYDALARI*

**Əziz bacım!** Hicabın əsas faydalarından biri əxlaq pozğunluqlarından pak olan bir cəmiyyətin yaradılmasıdır.

Hicab, ailə daxilindəki münasibət və əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Hər hansı bir ağıllı qız və ya qadın heç vaxt razı olmaz ki, başqaları üçün əyləncə vasitəsinə çevrilsin. Bu İlahi rəhmətdən uzaq düşənlər, əslində şeytanın onlar üçün düzəltdiyi çirkabda bulaşıblar.

Hicab - həqiqi azadlığın aradan getməsi üçün səbəb deyil, əksinə insanın həqiqi azadlığının carçısıdır.

Hicab - nəsillərin süqutu təhlükəsinin qarşısını almağın əsas bünövrəsi və ailə mühitinin qorunması amilidir.

Hicab - keçmişə qayıtmaq deyil, milli kimliyimizə qayıtmaqdır.

**Əziz bacım!** Bəziləri hicab örtənlərə - "köhnə dövrə qayıdırsız" - deyə məsxərə edirlər, lakin özlərinin soyunmaqla - "daş dövrünə" qayıtmaqlarından xəbərsiz olduqlarını belə düşünmək istəmirlər.

Şəhid Murtəza Mütəhhəri buyurur: "**Əgər çılpaq gəzmək mədəniyyət hesab olunursa, onda bütün heyvanlar insanlardan daha da mədəniyyətlidir**."

Örtünmə - bütün şübhəli yolları kəsir. Qadın və kişilərin qəlbinə şeytanın vəsvəsə etməsinə imkan vermir. Qadınların namus və izzətlərinin qorunmasını təmin edir. Eyni zamanda onlara əziyyət edilməsinə də mane olur. Buna əsasən də Uca Allah, Peyğəmbərin **(salləllahu ələyhi və alihi və səlləm)** xanımlarına, qızlarına

və möminlərin xanımlarına özlərini yad nəzər və naməhrəmdən qorumaq üçün hicab örtmələrini əmr edir.

Kişi və qadın küçədə, bazarda, ictimai yerlərdə, elm və təhsil mərkəzlərində, xarici səfərlərdə bir-birilə qarşılaşmaq məcburiyyətində olduqlarına görə, onların fikir və ruhi sağlamlıqlarının qorunması üçün Qurani-Kərimdə qadınlarla bağlı bir, hər iki cinslə bağlı isə digər bir vacib məsələdə göstəriş verilmişdir. Qadınlar barədə "Əhzab" surəsinin 59-cu ayəsinə nəzər salaq:

يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاء الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ ذَلِكَ أَدْنَى أَن يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا

«**Ey Peyğəmbər, öz zövcələrinə, qızlarına və möminlərin zövcələrinə de ki, örpəklərini örtsünlər (onlara bürünsünlər, boyun-boğaz, sinə, qolları və ayaqları örtülsün). Bu (iş), onların (hicab və iffətlə) tanınması, (başqalarının onlara) əziyyət verməməsi və incitməməsi üçün daha münasibdir. Allah həmişə Bağışlayan və Rəhimlidir**.»

Hər iki cins haqqında isə "Nur" surəsinin 30 və 31-ci ayələrinə işarə etmək olar.

## *NİYƏ QAÇIRSAN?*

**Əziz bacım!** Nə üçün hicabdan qaçırsan? Əsl səbəbini özün yaxşı bilirsən. Lakin nəzərimə görə başlıca səbəblərdən biri - sənin bu mühitin təsiri altına düşməyindir. Çünki sən, əksər qadınları hicabsız görürsən və bu da sənə şüuraltı bir mesaj verərək haqq yoldan uzaqlaşdırır. Sən, çoxluğa üstünlük verirsən. Lakin öz vicdanına və fitrətinə diqqət etsən, o zaman yanlış yolda olduğunu görərsən.

Çoxluğun təsiri səni Allah sevgisindən və xoşbəxt həyat tərzindən uzaqlaşdırır. Əgər sən ədaləti, həqiqəti və düzgünlüyü çoxluqla ölçürsənsə, düz fikir yürütmürsən. Çünki "**çoxluq**" - həqiqət və üstünlük demək deyil.

Diqqətini bir neçə ayəyə yönəltmək istərdim:

**Lakin insanların çoxu şükür etmirlər**.[1]

**Onların bəzisi mömin və çoxu itaətsizdirlər**.[2]

**Lakin insanların çoxu iman gətirmir**.[3]

**Yenə onların çoxu kor və kar oldular**.[4]

**Doğrudan da Biz cin və insanların çoxunu Cəhənnəm üçün yaratmışıq.**[5]

**Lakin onların çoxu haqqı xoşlamırlar**.[6]

**Lakin sizin çoxunuzun haqqdan xoşu gəlmir**.[7]

**Buna görə də onların yalnız az bir hissəsi iman gətirər**.[8]

**Və Allahı çox az yada salırlar**.[9]

**Əgər (din işlərində) yer üzündəki insanların çoxuna tabe olsan, səni Allahın yolundan azdırarlar. Onlar yalnız zənn və gümanın arxasınca gedirlər və ancaq təxmin edirlər.**[10]

---

[1] "Bəqərə" surəsi, ayə 243.
[2] "Ali-İmran" surəsi, ayə 110.
[3] "Ğafir" surəsi, ayə 59.
[4] "Maidə" surəsi, ayə 71.
[5] "Əraf" surəsi, ayə 179.
[6] "Muminun" surəsi, ayə 70.
[7] "Zuxruf" surəsi, ayə 78.
[8] "Nisa" surəsi, ayə 46.
[9] "Nisa" surəsi, ayə 142.
[10] "Ənam" surəsi, ayə 116.

**Və sizin üçün yaşayış vasitələri hazırladıq, amma siz çox az şükür edirsiniz.**[1]

**Əziz bacım!** Pisliklərə maraq göstərmək insanın təbiətini dəyişir və insana öz batinində gizlənən gözəlliklərdən ləzzət almağa qoymur. Əgər insanın təbiəti xarab olarsa, onda ibadətdən və Allah zikrinin şirinliyini dadmaqdan məhrum olacaqdır. Digər tərəfdən əgər insanın təbiəti ali dərəcədə olarsa, günahdan ləzzət almayacaqdır.

Bil ki, sənin qəlbin pak fitrət üzərində qurulub. Elə isə iradəni gücləndir, nəfsinə və şeytana qalib gələrək pak fitrətinə doğru qayıtmağa çalış! Allah-təala "Rum" surəsinin 30-cu ayəsində belə buyurur:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

«**(Ya Peyğəmbər!) haqqa tapınaraq ürəyini (qəlbini) bu dinə (İslam dininə) sarı döndər. Allah həmin fitri din əsasında insanları yaratmışdır. Allahın yaradılışında əsla bir dəyişiklik ola bilməz (və Onun dinində də olmamalıdır). Sabit və möhkəm olan din budur. Lakin camaatın əksəriyyəti (bunu) bilmir.**»

## *ŞEİR*

Hicab, xanım Zəhradan bizə yadigar,
Onu Zeynəb bizə edib etibar.
Hicabsız bu dünya bizə olub dar,
Canımdan keçərəm, Ondan keçmərəm.

[1] "Əraf" surəsi, ayə 10.

Hicab, Allah əmri – bihudə sayma!
Allahın əmrinə qadağa qoyma!
Hicab dərimizdi, dərimi soyma!
Canımdan keçərəm, Ondan keçmərəm.

Hicab ismətimiz, hicab arımız,
Həm varlığımız, həm də varımız.
Qiyamət günündə bizim karımız,
Canımdan keçərəm, Ondan keçmərəm.

Ey hicaba qarşı duran kimsələr!
Məkrli hiylələr quran kimsələr!
Zəhranın qəlbini qıran kimsələr!
Canımdan keçərəm, Ondan keçmərəm.

## *ALLAHA OLAN MƏHƏBBƏT*

**Əziz bacım!** Əgər sən Allaha iman gətirib Ona məhəbbət bəslədiyini iddia edirsənsə, bil ki, dildə deyilən bu məhəbbətin faydası yoxdur. Çünki həqiqi məhəbbət "**iman**" və "**əməl**"dən ibarətdir. Yəni qəlbdə məhəbbətdən əlavə əməl vasitəsilə də o məhəbbəti yerinə yetirmək lazımdır.

Bir misala diqqət edək: Dünyada ən çox sevdiyin bir insan (məsələn, ana) səndən düz olan bir əməlin yerinə yetirməsini istərsə, sənin münasibətin necə olar? Əgər ona - "**ay ana, mən səni sevirəm, amma dediyini etmək istəmirəm**" - desən, bunu həqiqi məhəbbət hesab etmək olarmı?

**Əziz bacım!** İndiyə kimi heç düşünmüsənmi, yay fəslinin isti və qızmar çağında möminə xanımlar nə üçün hicab örtürlər? Onları buna kimsə məcbur edir?

Yoxsa, kimsə onlara gündəlik pul ödəyir? Bəlkə başqa bir səbəb var?

Bəli, əlbəttə ki, var. Bu səbəbin adı – **eşq** və **məhəbbətdir**. Yaradana olan məhəbbət. Bu, elə bir məhəbbətdir ki, heç bir "məhəbbət"lər önə keçə bilməz. Çünki o eşqdə Allaha və Qiyamətə[1] iman vardır.

Sənə bir maraqlı və ibrətamiz hekayə danışmaq istəyirəm:

Hicablı bir xanım avtobusa daxil olarkən sürücü bilmədən avtobusun qapısını bir az tez bağladı və bunun nəticəsində xanımın çadrasının bir hissəsi qapı arasında qaldı. Bunu görən açıq-saçıq bir xanım, hamı eşitsin deyə, uca səslə etirazını bildirdi: "Axı bu nə geyimdir? Belə geyimlər insana əziyyətdən başqa bir xeyir vermir. Bəziləri özünə əziyyət verməyi xoşlayır."

Nəhayət hicablı xanım, ona irad tutan qadınıın yanında əyləşdi və heç kim eşitməsin deyə, ona sakitcə belə pıçıldadı: "Əvvələn bu geyim, Əziz Allahımızın əmridir və Allah-təala da heç vaxt hikmətsiz bir işi buyurmaz. İkincisi isə, mən bu əziyyətə dözməyə hazıram. Ona görə ki, əgər nə vaxtsa, sənin həyat yoldaşın öz vəzifəsinə əməl etməyib baxışlarını kontrol edə bilməsə və mənim bədənimə baxarsa, onda sənin həyatın təhlükəyə düşə bilər, nəticədə isə sənə qarşı soyuq olar. Buna görə də onun sənə olan məhəbbəti və diqqəti azalmasın deyə, mən özümü çətinliyə salıb qızmar günəşin altında istiyə dözüb əziyyət çəkirəm. Bil ki, həm özümün və həm də sənin ailəni qorumaq üçün örtünürəm. Mən də sənin kimi bir qadınam və

---

[1] Qadınların bəzilərinin, bəlkə də əksəriyyətinin hicabdan uzaq düşmələrinin digər səbəbi Qiyamətə (öləndən sonra dirilməyə) şəkk etdiklərinə və ya inanmadıqlarına görədir.

gözəlliyimin tərifinə meylim var. Mən də sənin kimi yayın istisində tərləmək istəmirəm və çöldə-bayırda sənin kimi rahat gəzmək istəyirəm. Lakin bu istəklərimə baxmayaraq, üstündən qırmızı xətt çəkmişəm ki, az da olsa, sənin isti ailəni qoruyum. Və bil ki, bütün bunları öz vəzifəm hesab edirəm."

Hicablı xanım bunları deyib bir an sakit dayandı ki, bəlkə qarşısındakı qadın bir söz desin. Lakin onun sükut etdiyini görüb sözünə davam etdi: "Hər bir insanın öz vacib vəzifəsindən əlavə bir sıra hüquqları da vardır. Mənim günahım nədir ki, dar və cəlbedici paltarlar geyinib bədənlərini naməhrəmə nişan verərək, üz-gözünü və saçlarını müxtəlif rənglərə boyamış qadınlar, mənim həyat yoldaşımı öz ardınca çəkirlər? Gəl insafla düşünək: Mən sənin bu geyimindən narahat olub şikayət etməliyəm, yoxsa sən mənim geyimimdən?"

Açıq-saçıq qadın bir müddət fikrə daldıqdan sonra sükutu belə pozdu: "Sən düz deyirsən. Heç vaxt bu məsələ barəsində dərindən düşünməmişdim. Sanki gözlərimi açdın."

Nəhayət o, üzrxahlıq edib utandığından başını aşağı salıb düşünməyə başladı.

**Əziz bacım!** Deməli, İlahi məhəbbəti qazanmaq istəsən, Uca Allahın istəyini əməldə isbat etməlisən. Məhz belə olan surətdə Allah-təalaya məhəbbətin yalançı yox, həqiqi olacaqdır. Qurani-Kərim dəfələrlə (iman və əmələ) birlikdə işarə edib buyurur:

وَبَشِّرِ الَّذِين آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ

**«İman gətirən və yaxşı işlər görən (vacibləri yerinə yetirən) şəxslərə müjdə ver! Onlar üçün (evlərinin və**

**ağaclarının) altından çaylar axan Cənnətlər (və ya bağlar) vardır.**»[1]

## *ALTI DƏSTƏ QADIN*

**Əziz bacım!** Hər bir müsəlman qadını elmə yiyələnmək, özünü tərbiyə etmək, mənəviyyatını saflaşdırmaq və zənginləşdirmək üçün səy göstərməli, dünya bər-bəzəyinə, cah-cəlalına əhəmiyyət verməməli, ismət və iffətini qorumalı, həyat yoldaşının rahatlığını təmin etməli və öz isti qucağında sağlam düşüncəli, pak övladlar yetişdirməlidir.

Təəssüflər olsun ki, bu gün hicabın əsl mahiyyəti və fəlsəfəsi unudulub. Azərbaycanda təcrübələrimə əsasən qadınlar öz geyim və əqidələrinə görə altı dəstəyə bölündüyünün şahidi olmuşam. Onlardan üçü hicablılara, üçü isə hicabsızlara aiddir. Hicablılara aid olan üç dəstə aşağıdakılardan ibarətdir:

**Birinci dəstə:** İslam dininə iman gətirərək, Allah-təala tərəfindən nazil olmuş Qurani-Kərimin buyuruqlarını, o cümlədən Əhli-beytin **(əleyhimussalam)** müqəddəs kəlamlarını ciddi tutaraq hicablarına kamil surətdə riayət edər və yalnız öz həyat yoldaşı üçün bəzənərlər. Beləlləri öz zinətlərini naməhrəmdən gizlədər, yalnız Allahdan qorxar və Onun razılığını qazanmaq üçün ömür sürərlər. Qurani-Kərim belə xanımlar haqqında buyurur:

رَّضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ذَلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ

[1] "Bəqərə"surəsi, ayə 25.

**«Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Bu (mükafat) öz Rəbbindən qorxan kəslər üçündür**.»[1]

**İkinci dəstə**: Hicabın Allah tərəfindən vacib olduğunu bildikləri halda və bununla belə hicab örtmələrinə baxmayaraq, üz-gözünü bəzədər, ətirlənər, zinətlənər, həmçinin cəzbedici və dar paltarlar geyinərək qəsdən öz gözəlliklərini naməhrəmə nümayiş etdirərlər. Özünü dini kimliyin sahibi kimi təqdim edən bu dəstədən olan xanımlar, hər hansısa məhsulun və ya özünün reklamı üçün bəzənib ortaya düşürsə, buna nə ad vermək olar?

Bu dəstənin bir neçə məqsədi ola bilər. O cümlədən;

-Cavanların şəhvətini təhrik etmək.

-Özlərinə ər axtarmaq.

-Camaat arasında dini gözdən salmaq.

-Fitnə törətmək.

-Pul qazanmaq və s.

Beləəri sanki əllərinə qılınc alıb Allah-təala ilə vuruşanlardır. Belə ki, İmam Əli **(ələyhissalam)** buyurur: "Özünü başqalarına göstərmək üçün zinətlənərək Allaha qarşı üsyan etməkdən qorxun!"[2]

**Üçüncü dəstə:** Hicaba riayət etməsinə və zinətlənib öz gözəlliklərini naməhrəmə görsətməsinə baxmayaraq, bunu cahillik üzündən edirlər. Yəni onlar elə düşünürlər ki, hicab örtən qadın öz zinətini və gözəlliyini naməhrəmə nişan verə bilər və bunun heç bir günahı da olmaz. Belələrinə İslam dininin qanunlarını, məxsusən hicabın mahiyyətini başa salmaq lazımdır. Əksəriyyətinin həqiqəti eşidəndən sonra əhval-

---

[1] "Bəyyinəh" surəsi, ayə 8.

[2] "Biharul-ənvar", c. 77, səh. 337.

ruhiyyəsində peşmançılıq və dəyişiklik olduğunu öz təcrübələrimdə dəfələrlə müşahidə etmişəm.

İndi isə hicabsızlara aid olan üç dəstəni bildirək:

**Birinci dəstə:** Müsəlman olmasına baxmayaraq, elə düşünürlər ki, hicab ixtiyarlıdır. Yəni Allah-təala heç kimə örtünməyi vacib etməyib. Hər kəs istəsə, hicab bağlaya bilər və hər kəs istəsə, açıq-saçıq gəzə bilər. Bu dəstə elə bilir ki, hicab örtməyən kəs heç bir məsuliyyət daşımır və Allah dərgahında heç bir günahı yoxdur. Bunlara da həmçinin hicabın mahiyyətini və zəruriliyini başa salmaq və hicabsızlığın şeytani bir geyim olduğunu bildirmək lazımdır.

**İkinci dəstə**: Müsəlman olmasına baxmayaraq, hicab örtməyənin günahkar olmasından xəbərdardırlar. Lakin nəfslərinə qalib gələ bilmədikləri, həmçinin dünya həyatını Axirət həyatından üstün tutduqları üçün hicaba məsuliyyətsiz yanaşır və təhrikedici paltarlar geyinirlər. Bədənlərinin müxtəlif yerlərini naməhrəmə nişan verən və özünü pula satan bu dəstə qadınlarla heç zaman mömin bir kişi evlənməz. Bu cür qadınlar cəmiyyət üçün çox təhlükəlidir. Çünki onların niyyətində ancaq bəzənib-düzənmək, özünü kiməsə göstərmək və pul qazanmaq olduğu üçün nə ərlərini, nə də övladlarını fikirləşirlər. Belə qadınlardan törənən uşaqlar da nəzarətsiz qalır, avara adamlara qoşulur, içki içir, narkomanlıq edib cəmiyyəti murdarlayırlar. Cəmiyyətimiz də bax, beləcə pozulur.

Bu iki dəstənin (**həm hicablı, həm də hicabsız dəstənin ikinci dəstələri**) haqqında bir rəvayəti xatırlatmaq istərdim:

İmam Sadiq **(əleyhissalam)** buyurur: Qiyamət günü öz gözəlliyinə uyub günah edən gözəl bir qadın gətiriləcəkdir. Ondan -"nə üçün günah etdin?" - deyə

soruşulduqda, belə cavab verəcək: İlahi! Məni gözəl yaratdığın üçün bu günaha (zinaya) düçar oldum.

Bu zaman Həzrət Məryəm **(ələyhəssalam)** gətiriləcək və o qadından soruşulacaq: "Sən gözəlsən, yoxsa o? Onu gözəl yaratdım, lakin yolunu azmadı."

Günahkar qadın başını aşağı salıb cavab verə bilməyəcək. Nəhayət, nida olunacaq: "Aparın onu Cəhənnəmə!"

Həmçinin öz gözəlliyinə uyub aldanmış bir kişi gətiriləcəkdir. O, deyəcək: "Pərvərdigara! Məni gözəl yaratdığın üçün qadınların hiyləsinə düçar oldum."

Bu zaman Həzrət Yusif **(ələyhissalam)** gələcək və kişidən soruşulacaq: "Sən gözəlsən, yoxsa o? Onu gözəl yaratdım, lakin yolunu azmadı."

Günahkar kişi başını aşağı salıb cavab verə bilməyəcək. Nəhayət, nida olunacaq: "Aparın onu Cəhənnəmə!"[1]

**Sonuncu dəstə** isə müsəlman cəmiyyətində yaşayan qeyri-müsəlman[2] qadınlardır. Bu dəstə, haqq olan İslam dinindən uzaq düşdükləri üçün bacardıqları qədər "**şeytani ləzzət**"lərdən istifadə edərək öz yaşayışlarını zülmətə çevirirlər. Aqibətləri isə ziyandan və əbədi əzabdan başqa bir şey deyildir.

إِنَّ الدِّينَ عِندَ اللهِ الإِسْلاَمُ وَمَن يَبْتَغِ غَيْرَ الإِسْلاَمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ

**«Şübhəsiz (həqiqi) din Allah yanında həmin İslamdır... Hər kəs İslamdan başqa bir din axtarışında**

---

[1] "Usulu-kafi", c. 8, səh. 228, hədis 291. Şeyx Kuleyni.
[2] Yəni məsihi, yəhudi, büdpərəst, ateist, və s.

**olsa, əsla ondan qəbul olunmayacaq və o, Axirətdə ziyankarlardan olacaq**.»[1]

**Əziz bacım**! Bu sadaladığım dəstələrin məhz birinin doğru yolda olduğu yəqin ki, sənə məlum oldu və yerdə qalan beş dəstə üçün tövbə qapısı həmişə açıqdır. Elə isə Allahın razılığını qazanmaq və həyatının xoşbəxtliyi üçün haqq dəstədən olmağa tələs!

## *HƏYA*

**Əziz bacım**! Cəmiyyətdə hicabsızlığın, fitnə-fəsadın və günahın yayılmasının başlıca səbəblərindən biri qadınlarda "həya"nın olmamasıdır. Həya, yəni utanmaq.

Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** buyurur: "Həya iki növdur: Ağıl və axmaqlıq həyası. Ağıl həyası - elm, axmaqlıq həyası isə cəhalətdir.[2]

Alimlər həyanı başqa cür də bəyan ediblər; **bəyənilən** və **bəyənilməyən**. Bəyənilən həya kimdə olarsa, o, istər təklikdə, istərsə də cəmiyyət arasında günaha yol verməz. Çünki bilmədiyini soruşur, öyrənir və özünü həmişə Allahın hüzurunda hiss edir.

Əksinə, bəyənilməyən həya kimdə olarsa, utancaqlığına və öz şəri məsələsini soruşmadığına görə günaha mürtəkib olur. Çünki cəhalət, insanı uçuruma aparır. Müsəlman gərək öz vəzifəsini yerinə yetirməkdə camaatdan yox, Allahdan utansın.

---

[1] "Ali-İmran" surəsi, ayə 19 və 85.
[2] "Usulu-kafi", c. 3, səh. 166. Şeyx Kuleyni.

**Əziz bacım**! Həya, dinimizdə əhəmiyyətli sifətlərdən sayılır və imanla bir sırada dayanır.

İmam Sadiq **(ələyhissalam)** üç hədis yada salmaq istərdim: Həzrət buyurur:

"Həyası olmayanın imanı olmaz."[1]

"Həya, imanın yanındadır. Onlardan biri getsə, digəri də yox olacaqdır."[2]

"Həya, imanın nişanələrindəndir. İmanı olan isə Cənnətlikdir."[3]

Həzrət Musa **(ələyhissalam)** Şüeyb[4] Peyğəmbərin **(ələyhissalam)** qızlarına kömək edib quyudan su çəkir və onların heyvanlarına su verir. Qızlar evə qayıdanda onlardan biri atasına cavan oğlanın onlara kömək etdiyini vurğulayır. Həzrət Şüeyb **(ələyhissalam)** də Musaya **(ələyhissalam)** yaxşılığın müqabilində muzd ödəmək üçün qızlarından birinə deyir ki, gedib onu çağırsın. O, qayıdır və atasının buyuruğunu Həzrət Musaya **(ələyhissalam)** çatdırır. Beləliklə, onlar yola düşüb gəldikdə, Musa **(ələyhissalam)** qıza deyir ki, sən arxada gəl və bu çomaqla mənə yol göstər. Sağa və ya sola dönmək lazım olduqda onunla çiynimdən vur![5]

Yəni Musanın **(ələyhissalam)** həyası və qeyrəti icazə vermir ki, o, günaha batsın. Bu cavan oğlan, qıza arxadan baxmasın və hətta onunla artıq kəlmə danışmasın deyə, özü qabağa keçir və əlindəki çomağı qıza verir ki, Həzrəti çomaqla istiqamətləndirsin.

---

[1] Həmin mənbə.
[2] "Usulu-kafi", c. 3, səh. 165. Şeyx Kuleyni.
[3] Həmin mənbə.
[4] Əslində Şuəyb.
[5] "Təfsire Əbul-Futuhe Razi". Qəsəs surəsi 25-ci ayənin təfsirində.

**Əziz bacım!** Əgər diqqət etsən, görərsən ki, haram olan toylarda qadınlar naməhrəm kişilərin qabağında əl-qol açıb oynayır, bədənlərini haram musiqi sədaları altında müxtəlif hərəkətlərlə nümayiş etdirir və onlara baxan acgöz kişilərin şəhvətini oyadırlar. Kənardan bu şeytani məclisi izləyən gözü qızmış və şəhvəti oyanmış yad kişilər isə sanki pusquda duran canavarlar kimi həmin qadınların üstünə atılıb onları parçaladığını öz nəzərlərindən keçirir və min bir şeytani xəyallara qapılırlar. Qadınlar da sanki heç bir hadisə olmamış kimi naməhrəmlərə əhəmiyyət vermir, hətta rəqs etməkdə bir-birilərini ötüb keçməyə çalışırlar.

İndi səndən soruşuram: De görüm, sən həmin toyda rəqs edən qadınlar sırasında olmaq istərdinmi?

**Qız var, hicab geyir, istiyə dözür Allah üçün,**
**Qız da var, mini geyir, soyuğa dözür kişilər üçün.**

## *QEYRƏT*

**Əziz bacım!** Ərəb lüğətindən bizim dilə keçən qeyrət[1] sözünün mənası- "**dəyişiklik**" deməkdir. Amma, xalq arasında bu kəlmə adətən, insanın öz namusunu, dinini, şəxsiyyətini, vətənini və mal-dövlətini qorumasına deyilir. Qeyrətli insanın bütün bu qeyd olunmuş mövzuların müdafiəsində sifəti şiddətlə **dəyişdiyinə** görə ona "**qeyrətli**" adı verilir. Bütün bu mənaların müqabilində hər kəsin namusuna, şəxsiyyətinə, vətəninə, dininə və mal-dövlətinə qarşı

[1] Əslində "**ğayrat**".

təcavüz olarsa, bu zaman o, müdafiə etməsə və yerindən tərpənməsə, ona el arasında qeyrətsiz və ya dəyyus ləqəbləri verilir.

Allahın Elçisi **(salləllahu ələyhi və alihi və səlləm)** belə buyurur: "Cənnətin ətirli iyi beş yüz illik məsafədən duyulur. Amma iki dəstə insan, Behiştin iyini heç vaxt duymaz. Onlardan birincisi valideynin üzünə ağ[1] olan, ikincisi isə dəyyusdur." Soruşdular: "Ey Allahın Peyğəmbəri! Dəyyus kimdir?" Buyurdu: "Həyat yoldaşının zina etdiyini bilən və bu əməlin qarşısını almayan kəs dəyyusdur."[2]

**Əziz bacım!** Binaların tinində dayanıb avara və nəşə çəkən oğlanlara heç fikir vermisənmi? Onlar günahkar olmalarına baxmayaraq, hicabın əzəməti qarşısında təslim olurlar. Belə ki, bəzən onlar, gəlib-gedən bəzənmiş, açıq-saçıq və qısa don geyən qızlara söz atır və onlara sataşırlar. Lakin hicablı bir xanımı gördükdə isə üzlərini yana çevirir, yaxud başlarını aşağı dikirlər. Səncə, nə üçün belə edirlər? Əlbəttə ki, onlar hicabın əzəməti önündə öz ehtiramlarını nümayiş edirlər.

Hicabsızlıq - saysız fəsadlarla nəticələnən çirkin bir işdir. Bu əməlin haram olması, Allahın Qeyrət sifətindən doğur.

İmam Sadiqdən **(ələyhissalam)** nəql olunmuş hədisdə oxuyuruq: "Allah-təala Qeyrətlidir və qeyrətli şəxsi də çox sevir. O (Allah), insanın qeyrətinə xatir onun günahlarını heç vaxt aşkar etməz!"[3]

---

[1] Əslində "aqq". Yəni valideynə qarşı ədəbsizlik və hörmətsizlik.
[2] "Raze xoşbəxtiye həmsəran", səh. 45.
[3] "Furuu-kafi, c. 5, səh. 536. Şeyx Kuleyni.

Cəmiyyətdə qadınların açıq-saçıq gəzmələrinin əsas səbəblərindən biri də kişilərin qeyrətsizliyi və bu vacib məsələyə qarşı etinasız olmalarıdır. Qeyrəti olan kişi heç zaman öz namusunu yad kişilərə nümayiş etdirməz. Kişi həmişə öz namusunu qorumalı, lazım gələrsə, onun yolunda canından keçməlidir.

Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** buyurur: "Həqiqətən qeyrət, imanın nişanələrindəndir."[1]

Qeyrət sifəti insanın elə mühüm və həyati sifətlərindəndir ki, hər bir insanın düşməni onu məğlub etməkdən ötrü ilk növbədə ona əl atır. Müasir dövrümüzdə Qərbin, müsəlman ölkələrinə qarşı apardığı informasiya, mədəni müharibə və hücumunun ən aşkar taktikası "qeyrətsizlik" şüarı və bunu müsəlman cəmiyyətində yaymasıdır. Onlar, çox yaxşı bilirlər ki, müsəlman xalqın qeyrəti ilk növbədə onun etiqadına və dininə bağlı olub, İslamdan mənşələnir. Ona görə də bu sahədə hər hansı ölkədə İslam dini ilə mübarizədə qeyrətsiz insanlardan istifadə olunur.

Qeyrətin ən mühüm üç hissəsi bunlardan ibarətdir: namus, din və vətən qeyrəti. Müsəlman ölkələrinin əksəriyyətində Qərbin bir sıra adətləri və psixologiyası o qədər geniş yayılıb ki, müsəlmanlar qeyrətsizliyə adət kimi baxırlar. Bu isə qeyrətsizliyin ən mühüm acı nəticələrindən biridir.

Adətən, müsəlman mintolitetinə görə torpağı işğal altında olan ölkə başçısının qeyrəti yol verməməlidir ki, düşməninə əl verib onunla görüşsün, yaxud onunla qucaqlaşıb öpüşsün və ya onunla gülə-gülə danışsın. Bu

---

[1] "Mizanul-hikmət", c. 3, səh. 2342.

hal, ən azı o ölkənin torpağının qorunması uğrunda canlarından keçmiş şəhidlərə ehtiramsızlıqdır. Bu kimi hərəkətlər, bütöv bir müsəlman xalqın adına və qeyrətinə ləkə gətirməkdən başqa bir şeylə nəticələnməz.

**Əziz bacım!** Quran və rəvayətlərdə "qeyrət" - ən mühüm məsələlərdən biri sayılır. Onlardan bəzilərinə işarə etmək yerinə düşərdi:

1) Allah-təala Qurani-Kərimdə müsəlman qadınların iffət və namusunu o qədər mühüm bilir ki, hətta onların yerişində və danışığında da qəlbi xəstə və şəhvətpərəst insanların onlara pis gözlə baxmasına razı olmur:

وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ

«**(Qadınlar) gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!**»[1]

Başqa bir ayədə isə Allah-təala İslam Peyğəmbərinin **(salləllahu ələyhi və alihi və sələm)** həyat yoldaşlarının kişilərlə danışıqlarında belə diqqətli olmalarına işarə edərək, onlara buyurur:

فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَّعْرُوفاً

«...**Buna görə də (yad kişilərlə) yumşaq (əzilə-əzilə) danışmayın, yoxsa qəlbində mərəz (şəkk, nifaq və**

---

[1] "Nur" surəsi, ayə 31.

**günah xəstəliyi) olan tamaha (özgə təmənnaya) düşər. Və (danışdığınız zaman) gözəl danışın**!»[1]

2) Qureyşli bir gənc Peyğəmbərin **(salləllahu ələyhi və alihi və səlləm)** yanına gəlib dedi: "Ey Allahın Elçisi, icazə ver, zina edim." Bu zaman səhabələr ona yaxınlaşıb "sus-sus" deyərək, kənara çəkdilər. Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** ona buyurdu: "Yaxın gəl!" Cavan yaxına gəldikdə Həzrət buyurdu: "Bu dediyini öz anana rəva bilərsənmi?" O: "Allaha and olsun ki, yox. Allah məni Sənə fəda etsin! Həmçinin insanlar da öz analarına bunu rəva bilmirlər." Həzrət: "Bəs bunu öz qızına rəva bilərsənmi?" Cavan: "Allaha and olsun ki, yox. Ey Allahın Elçisi, Allah məni Sənə fəda etsin! Həmçinin insanlar bunu öz qızlarına istəməzlər." Həzrət yenə bir-bir soruşdu: Öz bacına, xalana və bibinə rəva bilərsənmi?" Cavan isə "yox" deyə cavab verirdi..." Nəhayət, Peyğəmbər-Əkrəm **(salləllahu ələyhi və alihi və səlləm)** əlini onun çiyninə qoyub belə dua etdi: "İlahi, onun günahını bağışla, qəlbini təmizlə və ismətini qoru!"

Bu hadisədən sonra o gənc bir daha zinaya meyl etmədi.[2]

3) Əmirəlmöminin Əlidən **(ələyhissalam)** qeyrət haqqında belə nəql olunur: "Allah-təala qeyrətsiz şəxsə lənət edər." Həmçinin buyurur: "Hər kəsin qeyrəti olmasa, onun qəlbi dəyişər və qaralar."[3] (Yəni onun qəlbi artıq kor olar, İlahi nuru və nəsihəti qəbul etməz).

Bəli, İslam dini müsəlmanları belə bir etiqada dəvət edir. Müsəlmanlar bu mövqe və sifətə malik insanlar

---

[1] "Əhzab" surəsi, ayə 32.
[2] "Musnədu Əhməd", c.5, səh.156. "Məcməuz-zəvaid", c.1, səh.129.
[3] "Vəsailuş-şiə", c.14; səh.108 səh. 176, Şeyx Hürr Amuli.

olmalı, cəmiyyətdə heç kimin namusuna çəp baxmamalı və bu etiqadla da yaşamalıdırlar.

**Əziz bacım**! Yəqin ki, təhsil ocaqlarında qız və oğlanların arasında baş verən şəhvətpərəstlik və əxlaqsızlığın tüğyan etməsindən xəbərin var. Hələ o biri günahlar[1] qalsın qıraqda. Orta məktəbdə açıq-saçıq qızlara nəzər edən oğlanın şəhvət hissi oyanmağa başlayır. Başqa sözlə desək, onda psixoloji, yaxud ruhi böhran baş qaldırır. O, ağlını və imanını zəiflədən şəhvətinə yetişmək üçün müxtəlif yollarla öz ehtiyacını və ehtirasını təmin etməyə çalışır. Fikri yalnız şəhvətini söndürmək olur. Artıq, dərslərində geriləmək müşahidə olunur. Öz istəyinə çatmayanda, ya cinayətə (təcavüz və s.) əl atır, ya da ruhi böhranda qalmaqda davam edir. Sonu isə acı nəticələnir.

Statistika komitəsi məlumat verir: Azərbaycanda bir il ərzində 40 məktəbli qız abort etdirib. Onlar 15-17 yaş arası olublar.

Cinsi şəhvət çox güclü bir istəkdir. Yaddan çıxarmaq olmaz ki, əgər bir cəmiyyətin qadınları hicabdan istifadə etməsələr, tüğyankar şəhvətin xətərli aqibətlərindən amanda qalmayacaqlar. Nəticədə həmin cəmiyyət həmişə təlatümdə olan dənizə bənzəyəcək. Bu təlatümə düşməməyin əsas yolları bunlardır:

1-**Orta məktəblərdə şagirdlərə İslamın həqiqəti tədris olunmalı;**

2-**Oğlanlar qızlardan ayrılmalı**;

---

[1] Yalan, söyüş, xəyanət, qeyrətsizlik, oğlanların qız üstündə bir-birilə çəkişməsi, valideynə və müəllimlərə hörmətsizlik, kiçiklərə zülm olunması, narkotik, qumar və spirtli içkilərdən istifadə və s.

Bəli, nə qədər ki, təhsil ocaqlarında İslam maarifi tədris olunmasa və qızlar məktəbi ayrı, oğlanlar məktəbi də ayrı olmasa, cəmiyyətə əməli-saleh övladların təhvil verilməsi çətinləşəcəkdir.

İmam Əli **(ələyhissalam)** buyurur: "Bəzən bir an şəhvətə uymaq, özündən sonra uzun bir peşmançılığı və hüznü irs qoyur."[1]

## *HİCAB*

Bir xanımın ən gözəl izzətidir hicabı!
Namus ilə həyası, ismətidir hicabı!
Fatimeyi-Zəhranın ülvi yadigarıdır,
Zeynəbi-Kubranın həm, zinətidir hicabı!

Əzəldən vacib olmuş İlahinin əmridir,
Quranın fərizəsi, hörmətidir hicabı!
Ey hicaba əl atan, şərəfsiz din düşməni!
Bil ki, İslam dininin qeyrətidir hicabı!

Müsəlman cəmiyyətin şərəfi, ləyaqəti,
Ən qiymətli, bahalı sərvətidir hicabı!
Böyüklərin həmişə nəsihəti bu olmuş,
Əsil xanım, qadının dövlətidir hicabı!

Başqa dinlər içində İslamın üstünlüyü,
Onun sahib oldugu nemətidir hicabı!
Vəsf etsə də hicabı, Rövşən böyük həvəslə,
Bitib tükənməyəcək, söhbətidir hicabı![2]

---

[1] "Mizanul-hikmət", c. 1, səh. 381.
[2] İlahiyyatçı və şair seyyid hacı Rövşən Rəhimli.

# *BƏHANƏLƏRƏ CAVABLAR*

**Əziz bacım!** Hicaba əhəmiyyət verməyən qadınların bəhanələrini qeyd edib onları cavablandırmaq istərdik:

***Бəhaнə 1***: Mən Allaha inanıram və məncə bu kifayətdir. Hicab bağlamağa isə ehtiyac görmürəm. ***Cavab:*** Çox gözəl, amma iş burasındadır ki, sənin inandığın O Uca Allah, hicabı sənə vacib bilir: «**Mömin qadınlara de ki, (başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini yumsunlar və öz ayıb yerlərini (üz və əllərindən başqa bədənlərinin hər yerini yadların görməsindən) qorusunlar. Həmçinin öz zinət və bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və sairəni, naçarlıqdan öz-özlüyündə) görünən (üst paltarları, əl və üz kimi şeylər) istisna olmaqla, üzə çıxarmasınlar...**» *(Nur surəsi, ayə 31).*

***Bəhanə 2:*** Mən hesab edirəm ki, ən başlıcası "**qəlbin təmiz olması**"dır. Hicab taxmasan da olar. ***Cavab:*** Müqəddəs və mübarək dinimiz də qəlbin təmizliyini əsas amillərdən sayır. Amma məhz elə hicab - həmin bu qəlb təmizliyinə nail olmağın zəruri elementlərindəndir. Maraqlıdır, Allahın sözünə qulaq asmayanın ürəyi necə təmiz ola bilər? Belə çıxır ki, sənin qəlbin, hicab bağlayan Həzrət Fatimədən **(ələyhəssalam)**, yaxud Həzrət Zeynəbdən **(ələyhəssalam)** də təmizdir?!

***Bəhanə 3***: Camaat hicab bağlayana pis baxır və onu cəmiyyətdən "**geridə qalmış**" bir insan kimi tanıyır. ***Cavab:*** Bəs onda dünyada müxtəlif peşələrdə (müəllimə, həkim, mühəndis, hətta nazir vəzifəsində) çalışan və eyni zamanda hicaba riayət edən xanımlara, həmçinin xalqımızın Məshəti, Şəhrəbanu kimi görkəmli

yazıçı və şairələrinə sözün nədir? Onlar da “**geridə qalmış**” olublar? Sözsüz ki, milyonlarla möminə xanımların hicaba riayət etməsi, dediyinin əksini sübut edir. Bir də ki, insanların gözündə uca görünüb onların razılığını qazanmaqdansa, Allahın dərgahında ucalmaq və Onun razılığını qazanmaq məntiqə uyğun deyilmi?

***Bəhanə 4:*** O qədər hicab bağlayan tanıyıram ki, gizlində min cür oyundan çıxır, özlərini layiqli aparmır və istənilən səviyyədə başqalarına nümunə ola bilmirlər. ***Cavab:*** Elə isə, sən o kəslərdən ol ki, nümunəvidirlər, hicaba düzgün riayət edir və bununla yanaşı öz ləyaqətlərini də qoruyurlar.

***Bəhanə 5:*** Mən niyyət etdim ki, filan arzum yerinə yetsə, hicab bağlayaram. Lakin arzum yerinə yetmədi. ***Cavab:*** Sən öz Yaradanına şərtmi qoyursan? Biz necə bilə bilərik ki, xeyirimiz və ziyanımız hardadır? Məsələn, ola bilər ki, sənin niyyətin və arzun bahalı bir avtomobil almaq idi. Lakin bu barədə olan yerinə yetməmiş arzun, səni ağır bir qəzaya (ölümə) gətirəcəkdi. Qurani-Kərim buyurur: «...**Bəyənmədiyiniz bir çox şeylər var ki, sizin üçün xeyirli və bəyəndiyiniz bir çox şeylər var ki, sizin üçün zərərlidir. Allah bunları bilir, siz isə bilmirsiniz**.» *(Bəqərə surəsi, ayə 216).*

***Bəhanə 6:*** Mən qorxuram ki, hicaba düzgün riayət etməyim. Bunu yerinə yetirmək mənim üçün çətin olsun. Yenidən başımı açacağımdan qorxduğum üçün örtünmürəm. ***Cavab:*** Qətiyyən qorxma! Əvvəl örtün, sonra bu haqda fikirləşərsən! Səndən qat-qat zəif və fiziki cəhətdən xəstə olan xanımlar belə, hicaba sonsuz eşqlə riayət edir, heç nədən qorxmur və bundan yalnız fayda aparırlar.

***Bəhanə 7:*** Sərbəstliyimin əlimdən alınacağından qorxduğum üçün başımı örtmək istəmirəm. ***Cavab:*** Görəsən, Qiyamətdə dirilib Allah-təalanın hüzurunda sərbəst ola biləcəksənmi?

***Bəhanə 8:*** Gözəlliyimi hamı görsün deyə, örtünmək istəmirəm. ***Cavab:*** Kaş ki, bu gözəlliyini özgəyə yox, öz həyat yoldaşına nümayiş etdirəydin. Məgər bilmirsənmi ki, əl və üzdən başqa bədənini, zinətini və hətta başının bir tükünü belə naməhrəmə göstərmək günahdır?

***Bəhanə 9:*** Başımın açıq olması məni dindən çıxartmır. ***Cavab:*** Düz deyirsən. Lakin dindən çıxmasan belə, günahkarsan. Üzərində israr edilən günah isə sahibini daha da uçuruma yuvarlayar. Bu dünyada hər bir günahkar (namaz qılmayan, oruc tutmayan, xüms ödəməyən, hicab bağlamayan və s.) etdiyi günahlara görə tövbə etməsə, Axirətdə əzaba düçar olacaqdır.

***Bəhanə 10:*** Məktəb və Universitetdə tələbə yoldaşlarıma dini təbliğ etdiyim üçün başımı açmalıyam. Bunula da dinimə xidmət etmiş oluram.[1] ***Cavab:*** Deməli, özünə xidmət etmək istəmirsən? Belə çıxır ki, onlara ürəyin yanır? Onları günahdan uzaqlaşdırmaq üçün özünün günah bataqlığına düşməyin hansı məntiqə sığır?

***Bəhanə 11:*** Örtünməli olduğumu bilirəm. Mən hələ cavanam və gələcəyimi də düşünməliyəm. 40 yaşına çatanda hicab bağlayaram. ***Cavab:*** Gələcək - ölümdür. Allahdan çoxmu bilirsən? Gələcəkdən xəbər vermək Allaha məxsusdur. Sən 40 yaşına kimi ömür sürəcəyinə əminsənmi? Yaxud bir dəqiqədən sonra başına nə iş gələcəyini bilirsənmi? Şair demişkən:

---

[1] Bu bəhanə, hicaba vurulan zərbələrin ən təhlükəsidir.

Çəkmə dünyanın nazını!
Sən gəl, bağla hicabını!
"**Sabah bağlaram**" deyənin,
Bu gün qıldıq namazını.[1]

## *MƏCBURİYYƏT, YOXSA?*

-Salam qonşu!

-Salam!

-Qonşu, bir söz deyəcəm.

-Buyur!

-Bu uşağın başını niyə zorla bağlayırsız? Bəlkə heç istəmir?

-Biz uşağın başını bağlayanda siz harda idiniz?

-Bilmirəm. Nəsə başa düşmədim səni.

-Deyirəm ki, uşağın başını zorla bağladığımızı hardan görmüsüz?

-Heç yerdən! Hardan görə bilərdim?

-Bəs onda uşağın başını zorla bağladığımız sizin ağlınıza hardan gəldi?

-Bir dəqiqə, bura bax, ay qonşu! Yeddi yaşında bir qız, başını niyə bağlamaq istəsin?

-Bəs yeddi yaşında bir qız, niyə qısa ətək və yaxası açıq geyinmək istəsin? Olmaya sizin uşaq geyinmək istəmir, lakin siz zorla uşağınızı belə biədəb geyinməyə məcbur edirsiz?

-Yox, məcbur niyə edək?

-Uşağınız özü elə geyinmək istəyir?

---

[1] Məqsəd-meyyit namazıdır.

-Hmmm... Yooox.

-Əlbəttə istəməz. Bir parça uşaq nə bilir qısa ətək və yaxası açıq geyinmək nədir? Uşağa geyindirdiyiniz bu biədəb geyim mütləq sizin seçiminizdir.

-Siz nə demək istəyirsiz? Mənim qızım nə geyinir, nə geyinmir bundan sizə nə?! Özünüz də dindarsız!

-Əsəbləşməyin! Mən yolumu gedirdim. Siz məni saxladınız.

-Hə, çox sağ olun! Bağışlayın, yolunuzdan etdim.

-Buyurun, yaxşı yol!

## *QƏRBİN QADINA VERDİYİ DƏYƏR*

**Əziz bacım!** Tarixə əsasən İslamdan əvvəl qadına insan kimi baxılmır və o, heyvanla insan arasında bir varlıq hesab olunurdu. Bəzən isə onlara heyvandan da artıq yük yükləyirdilər.

Müasir dövrümüzdə hələ də kişi ilə qadın eyni mövqedə deyil və qadının dəyərini kişinin dəyərindən çox aşağı bilirlər. Lakin ədalət və insaf dini olan İslam, qadın təbiəti ilə həmahəng olan xüsusiyyətlərə, onun təbii hüququna ədalət (nə ifrat və nə də təfrit) həddində bütün sahələrdə əməl edir və qadına diqqət yetirir.

Heç bilirsənmi, bu gün Qərb dünyası, “**insan və qadın azadlığı**” şüarlarını verməklə bəşəriyyətə və qadına necə böyük zülm edirlər?! Həqiqətdə onlar, “**qadın azadlığı**” şüarı arxasında qadını əyyaş kişilərin əyləncə vasitəsinə çevirmişlər. Tarix boyu qadın, lazımınca tanınmadığı və onun istedadlarına əhəmiyyət verilmədiyi üçün zülmə məruz qalmışdır.

Qərbə görə qadın azaddır. Kiminlə istəsə, ailə qurar və eyni halda kiminsə məşuqəsi də ola bilər. Belə bir

“azadlıq”, qadındakı bütün iffət pərdələrini cıraraq onu adi bir coraba çevirir ki, yuxudan ilk oyanan geyinsin.

Əxlaq normalarına riayət etməmək və cinsi əxlaqsızlığın azad buraxılması, zahirdə inkşaf etmiş bir cəmiyyəti uçurumun kənarına gətirib çıxarmışdır. Bəzilərinin ağız dolusu təriflədiyi Avropada artıq müxalif cinsə meyl sönməkdədir. İnsan azadlığı şüarı altında eyni cinslərdən olanlara evlənmək hüququ verilir. Ən dəhşətlisi budur ki, həmin Avropanın “sivil qanunlarını” yazanlar özləri bu xəstəliyə tutulublar. Artıq onların aralarında kişinin kişiyə və qadının qadına meyli artmaqdadır. Belə insanlar cəmiyyətdə böyük ehtiram sahibləridirlər. Sən buna necə baxırsan?

Yer üzündə ilk dəfə olaraq Lut Peyğəmbərin **(əleyhissalam)** qövmu həmcinsbazlığa görə həlakətə uğradılar. Bu barədə Qurani-Kərim buyurur:

وَلُوطًا إِذْ قَالَ لِقَوْمِهِ أَتَأْتُونَ الْفَاحِشَةَ مَا سَبَقَكُم بِهَا مِنْ أَحَدٍ مِّن الْعَالَمِينَ
إِنَّكُمْ لَتَأْتُونَ الرِّجَالَ شَهْوَةً مِّن دُونِ النِّسَاء بَلْ أَنتُمْ قَوْمٌ مُّسْرِفُونَ وَمَا كَانَ
جَوَابَ قَوْمِهِ إِلاَّ أَن قَالُواْ أَخْرِجُوهُم مِّن قَرْيَتِكُمْ إِنَّهُمْ أُنَاسٌ يَتَطَهَّرُونَ
فَأَنجَيْنَاهُ وَأَهْلَهُ إِلاَّ امْرَأَتَهُ كَانَتْ مِنَ الْغَابِرِينَ وَأَمْطَرْنَا عَلَيْهِم مَّطَرًا فَانظُرْ
كَيْفَ كَانَ عَاقِبَةُ الْمُجْرِمِينَ

**«Və Lutu (yada sal, onun) o zaman(ını) ki, öz qövmünə dedi: Siz aləmdəkilərdən sizdən qabaq heç kəsin etmədiyi o çirkin işi edirsiniz? Həqiqətən, siz arvadları qoyub şəhvətlə kişilərlə əlaqədə olursunuz. Həqiqətdə siz həddi aşan bir dəstəsiniz. Onun qövmünün cavabı yalnız bu oldu ki, dedilər: Bunları öz şəhərinizdən və cəmiyyətinizdən çıxarın! Bunlar paklıq axtaran insanlardır! Beləliklə, arvadı istisna olmaqla onu və ailəsini xilas etdik. Çünki o, (əzab əhli arasında) qalanlardan oldu. Və onların başlarına (kiçik**

**daşlardan ibarət) yağış yağdırdıq. Buna görə də günahkarların aqibətinin necə olduğuna nəzər sal!»**[1]

**Əziz bacım!** Qadına qarşı kütləvi şəkildə zülm və təcavüzkarlıq, müasir Qərb mədəniyyətinin məhsuludur. Onlar mütəmadi olaraq vəhşicəsinə cinsi təcavüzlərə məruz qalır, bəzən müqavimət göstərdikdə kobudcasına döyülür və hətta qətl edilirlər. İsveçdə qadın hər 20 dəqiqədən bir döyülərək yaralanır və hər 3 saatdan bir təcavüzə məruz qalır.

Vaxtilə müsəlman ölkəsi olmuş müasir İspaniyada (Əndəlos) 300-ə qədər məscid var idi. Amma hal-hazırda Qərbin fahişəlik və fitnə-fəsad proqramları vasitəsilə bu ölkədə apardığı uzun illər təbliğatından sonra İslam, azlıqda olan dinlərdən biri sayılır.

İngiltərənin verdiyi məlumata görə 16 yaşından 30 yaşınadək qadınların 41%-i cinsi təcavüzə məruz qalacaqlarına ehtimal verdikləri üçün daim nigarandırlar, 11%-dən yuxarı qadın isə onsuz da bir gün təcavüzə məruz qalacaqlarına inanırlar. 4% qadın cinsi təcavüz zamanı həyəcan siqnalından istifadə edir və 7% isə "özünü müdafiə" kurslarına gedirlər.

**Əziz bacım**! Bu gün səslənən "**qadın azadlığı**" şüarı, əslində qadınların deyil, əyyaş və qeyrətsiz kişilərin azadlığıdır. Qadının öz gözəlliyini nümayişə sövq etdirilməsi və ticarətdə ondan bir vasitə kimi istifadə olunması, qadına edilən ən böyük zülmdür. Belə ki, onu həyatın ali hədəflərindən uzaqlaşdırmış və çox faydasız və puç işlərlə məşğul etmişlər.

---

[1] "Əraf" surəsi, ayə 80-84.

Qərb dünyası qadına heç bir dəyər vermir, ona yalnız şəhvət gözü ilə baxır və onun vasitəsilə özünə pul toplayır. Təəssüflər olsun ki, Qərbin bu ideologiyası, Azərbaycan qadınlarından da yan keçməyib. Belə ki, qadınlar restoranlarda, barlarda, filmlərdə, şoularda və sairə əxlaqsız məkanlarda alçaldılır, haqqları və şəxsiyyətləri tapdanır. Buna görə də onlar,[1] qadını hədsiz dərəcədə alçaltdığına görə biz, bu ideologiyaya nifrət etməliyik.

## *HİCAB QADAĞASI VƏ AKSİYALAR*

**Əziz bacım**! Həqiqətən də müasir dövrümüzdə hicaba qarşı şiddətli müharibələr gedir. Müsəlman qadınların örtüyü - İlahi qanun və mədəni bir zərurət kimi həmişə İslami cəmiyyətlərin, siyasətçilərin və dövlət rəhbərlərinin diqqətində maraq dairəsində olmuşdur. Bu İlahi qanun, müsəlman dövləti sayılan Azərbaycanda bir sıra problemlərlə üzləşdi və indiyə kimi də davam edir.

Yadındadırsa, Azərbaycanda 2010-cu ildə sabiq təhsil naziri Misir Mərdanov məktəblilərin dərsə hicabla gəlməsini qadağan etdi. Bu qadağa heç bir qanunla və ya yazılı sərəncamla müşayiət olunmadı. Təhsil naziri tərəfindən şifahi tərzdə verilən bu göstəriş, məktəblərdə direktorları, parlamentdə isə xeyli sayda deputatları hərəkətə gətirdi. Birincilər (direktorlar) hicablı qızları məktəbə buraxmadılar, ikincilər (deputatlar) isə "dünyəvilik" prizmasından belə bir hüquq pozuntusuna haqq qazandırmağa çalışdılar.

---

[1] Qərb ideologiyasını təbliğ edib dünyaya yayanlar.

Sabiq nazirin bu qanunsuz qadağası inanclı dindarlar tərəfindən etirazlara səbəb oldu və hicablı qadınlar öz hüquqlarının müdafiəsinə qalxdılar. Yüzlərlə hicablı qızlar məktəbə buraxılmadığı üçün evdə qalıb dərslərini oxumağa məcbur oldular. Bəzi ailələr isə hicaba görə öz Vətənindən didərgin düşüb hicrət etməli oldular.

Bəli, müsəlman qadın öz şəxsiyyətini və ülvi dəyərlərini “**rahat yaşamağa**” satmır. O, hicabı tərk etməyə məcbur edilərsə, məcbur edildiyi məkandan hicrət etməli və hicabının toxunulmazlığı qorunan bir yerdə yaşamalıdır. Qurani-Kərim buyurur:

وَالَّذِينَ هَاجَرُواْ فِي اللّهِ مِن بَعْدِ مَا ظُلِمُواْ لَنُبَوِّئَنَّهُمْ فِي الدُّنْيَا حَسَنَةً
وَلأَجْرُ الآخِرَةِ أَكْبَرُ لَوْ كَانُواْ يَعْلَمُونَ

**«Və zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət etmiş kəsləri şübhəsiz, dünyada gözəl bir yerdə yerləşdirəcəyik. Və əlbəttə, əgər bilsələr, Axirət mükafatı daha böyükdür**.»[1]

Beləliklə, Bakının Təhsil Nazirliyi qarşısında və Azərbaycanın müxtəlif bölgələrində “**Hicaba azadlıq**” aksiyaları keçirildi. Aksiyalarda başda “Azərbaycan İslam Partiyası” olmaqla yanaşı xalqın qeyrətli oğulları da bu haqsızlığa qarşı öz etirazlarını bildirdilər.

Nəticədə xalqın qorxmaz və şücaətli oğulları dövlət polisləri tərəfindən döyülməyə və həbsə məruz qaldılar. Doktor və ilahiyyatçı Mövsüm Səmədov, ilk hicab şəhidi hacı Vaqif Adbullayev, ilahiyyatçı seyyid Fəramərz Abbasov, ilahiyyatçı seyyid Elman Ağayev, ilahiyyatçı Tale Bağırzadə, ilahiyyatçı Abgül Süleymanov, ilahiyyatçı Fəxri İlyasov, ilahiyyatçı Azər

---

[1] “Nəhl” surəsi, ayə 41.

Cəbiyev, ilahiyyatçı Zülfüqar Mikayılzadə, ilahiyyatçı Sərdar Hacıhəsənli, Abbas Hüseyn, Elçin Məmmədov və yüzlərlə haqqsevər ictimai, siyasi və dini fəallar müxtəlif zamanlarda zalım məmurlar tərəfindən şərlənərək zindana salındılar. Bunlar azmış kimi dinsiz məmurlar məscidlərin sökülməsini və azan səslərinin kəsilməsini növbəti plana çəkib icra etdilər.

Hal-hazırda dövlət rəsmiləri Konstitusiyada hicab qadağası olmadığı halda, hicaba qarşı özbaşınalığı ört-basdır etmək və qeyri-qanuni cinayətləri üçün Azərbaycanı ateist və sekulyar[1] bir dövlət olmasını bəhanə kimi göstərirlər. Əslində isə bu qadağanın mahiyyəti tam siyasidir və hakimiyyət, islamçıların ölkədə çoxalmasından qorxur. Həmçinin bu hakimiyyət özünü qərbli ağalarının yanında "**modernist**" kimi göstərmək istəyir. İslamçılar isə ölkədə sekulyarizmin inkişafını sionistlərin proqramı kimi dəyərləndirirlər.

**Əziz bacım**! Azərbaycan dövləti 1995-ci ildən qadın hüquqlarının qorunması konvensiyasına qoşulmuş və qadınlara qarşı hər cür zorakılığın, o cümlədən cismi zərər, psixi və ruhi zərər almasının, təhsil hüquqlarının tapdanmasının, ictimai azadlığının pozulmasının qarşısını almağı öhdəsinə almışdır.

Azərbaycan Konstitusiyasının 48-ci maddəsində deyilir: "*Dini ayinlərin icrası ictimai asayişi pozmursa və ictimai əxlaqa qarşı deyilsə, azaddır.*"

"Təhsil haqqında" qanunun 5.2-ci maddəsinə görə dövlət cinsi, irqi, dili, dini, siyasi əqidəsi, milliyyəti, sosial vəziyyəti, mənşəyi və sağlamlıq imkanlarından

[1] Dinin insanların düşüncə və hərəkətlərində və cəmiyyətdəki institutlar üzərində təsirinin azalması.

asılı olmayaraq, hər vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan ərazisində ən yüksək hüquqi qüvvəyə malikdir. Konstitusiyada göstərilir ki, hər bir kəsin vicdan və etiqad azadlığı var. Heç bir halda bu məhdudlaşdırıla bilməz.

Azərbaycanda ölkə prezidenti öz vəzifəsinə başlamazdan öncə Konstitusiya ilə yanaşı İslam dininin müqəddəs Kitabına, yəni Qurani-Kərimə da and içir. Maraqlıdır ki, İslam dininin əsas atributlarından biri olan hicaba qarşı açıq-aşkar mübarizə “dünyəvilik” pərdəsi altında aparılır.

Artıq inkişaf etmiş bir çox ölkələrdə hicab, uniformanın tərkib hissəsidir. Böyük Britaniyada, Norveçdə və bir sıra Avropa ölkələrində hərbçilərin, polislərin, yanğınsöndürənlərin və s. uniformalarına artıq hicab daxil edilib.

**Əziz bacım!** Heç xəbərin varmı ki, Azərbaycanda azərbaycanlıların yəhudi qədər belə hörməti yoxdur?! Yəhudilər öz məktəblərində dini geyimdə əyləşib rahat dərs oxuyurlar. Lakin azərbaycanlı şagirdlərin öz dini geyimdə dərs alması qadağandır.

Təhsil ocaqlarında hicaba qadağa qoyulmasına heç bir arqumentli cavab tapmayan Milli Məclis üzvləri İslamda “**yenilik**” etməyə cəhd göstərdilər. Artıq bir neçə müddətdir ki, sifarişlə işləyən bəzi dövlət məmurları Ölkəmizdə “**İslamın Azərbaycan modeli**” layihəsini irəli sürüblər. Bu qorxaq və dünyapərəst məxluqlar Allaha və dinə olan sonsuz kin-küdurətlərini bir daha sübut etmək üçün “İslamın Azərbaycan modeli” - nin hicabsız olduğunu iddia edirlər. Saray

mollaları buna susur və Əhli-beytdən **(ələyhimussalam)** oxuyan məddah isə klip çəkdirməklə Azərbaycan xanımlarına yeni "**şeytani hicab modeli**" təqdim edir. "Azərbaycan İslam modeli" - yəni "**İsrail islamı**." Bu o deməkdir ki, tədricən bütün dini ayinlər və dindarlar sarayın maraqlarının qulluğunda olacaqlar, bütün hökmlər və ayinlər tağutların istədiyi kimi təfsir və tətbiq olunacaq. Əgər Allahdan qorxan, dinin əsl keşikçiləri olan alimlər gec də olsa, indidən bu şeytani addımlara etiraz etməsələr, sonra gec olacaq, nəticədə isə dinin təbliği tam şəkildə yaltaq məddah və mollaların ixtiyarına keçəcəkdir.[1]

Hicab - qadının ucalıq, şərəf, kəramət və izzətidir. Hicab - düşmən qarşısında bir qalxandır. Elə bir qalxandır ki, Onun əzəmətindən qorxub Ölkəmizdə bu "**qeyrət simvolu**"nu boğmaq istəyirlər. Onlar anlayırlar ki, əgər xanımlar örtünsələr, gec-tez qeyrətsizlik məhv olub aradan gedəcəkdir. Ona görə də bu daxili və xarici düşmənlər, qeyrətsizliyi yaşatmaq üçün əllərindən gələni etməyə və ən murdar günahlara belə əl atmağa həmişə hazırdılar.

Hicab - qadınların hüququnu məhdudlaşdırmır. Əksinə, onların hüququnu məhdudlaşdıran zalım hakimiyyətdir. İşlə təminatda hicablı qadınlara məhdudiyyətlərin yaradılması, həmçinin təhsil müəssisələrində onların sıxışdırılması artıq ciddi siyasi problemə çevrilib. Hicablı qadınların işlə təminatı üçün hətta ilkin müsahibə mərhələsində hicabın çıxarılması

---

[1] Ətraflı məlumat üçün: https://youtu.be/tHJ9QA8qsz4 - https://youtu.be/CZh7L4Vx9zg - https://youtu.be/8Fet4kWtt6o -

tələb kimi qoyulur. Bütün bunlar bir daha sübut edir ki, müsəlman qadınların və qızların istifadə etdiyi hicab, İslam əxlaqının və dini inancın göstəricisidirsə, İslam mədəniyyətinə düşmən kəsilən qüvvələr üçün siyasi və iqtisadi təzyiq vasitəsidir.

İslamın zinəti, hüsnü-həyası,
Müsəlman qadının gözüdür hicab.
Bizə yadigardı Ali-Əbadan,
Xanım Fatimənin özüdür hicab.

## *İSLAMIN QADINA VERDİYİ DƏYƏR*

**Əziz bacım**! İndi isə İslamın qadına verdiyi dəyərdən qısa da olsa, məlumat vermək istərdim. İslam dini - qadına onun fitrəti və təbiətinə cavab verən öz həqiqi dəyərini tanıtdırır, onu ucaldır və bu meyarla da onun üçün məsuliyyətlər təyin edir.

Tarix boyu düşmənləri, dinimizə hər vasitə ilə ləkə gətirməyə və zərbə vurmağa çalşmışlar. Bu qara qüvvələr, dinə qarşı insanlarda ikrah və fobiya yaratmaqla məşğul olmuşlar. Həmin qarayaxma və quru böhtanlardan biri də budur ki, bu qaragüruhçular çalışırlar ki, İslam dinini qadına zərrəcə dəyər verməyən bir din kimi qələmə versinlər. Onlar min bir təbliğ vasitəsilə bəşər övladına çatdırmaq istəyirlər ki, İslam dini qadına dəyər vermir, onun səviyyəsini alçaldır və onu aşağılayır. Halbuki, bu əslən belə deyildir.

Qadın - İslamda öz həyat yoldaşı üçün bir İlahi əmanət hökmündədir. Təbiidir ki, ən yaxşı insanlar

onlar olacaqlar ki, bu İlahi əmanətlərə qarşı əmanətdar olsunlar.

Cahiliyyət dövründə olan kişilər, qadınlarla əşya kimi davranır və onlara hər cür olmazın əziyyətlərini verirdilər. Buna görə də İslam dinində qadınların hüquqlarını müdafiə etmək üçün xüsusi diqqət ayrılıb.

İslam - qadınların ictimai fəaliyyətinin əleyhinə deyil, əksinə hətta əgər qadının evdən kənarda əmək fəaliyyətini, onun ən mühüm vəzifəsi olan övlad tərbiyəsi və evdarlığı ilə toqquşmadığı təqdirdə zəruri hesab edir. Çünki heç bir ideologiya və məktəb İslam qədər insana və insanlığa dəyər vermir.

İslam - qadınların alış-veriş əşyası olmasının qarşısını alaraq, onları cəmiyyətin müxtəlif sahələrində (tibb, maarif və s.) fəal bir qüvvəyə çevirir. Baş örtüsü, qadın üçün məhdudiyyət deyil, əksinə qadının başqalarına qarşı qoyduğu məhdudiyyətdir.

**Əziz bacım!** Qurani-Kərimdə olan və qadına yüksək dəyərin verildiyini ifadə edən bir neçə ayələrə nəzər salaq:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا
إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

**«Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq və bir-birinizi tanıyasınız deyə, sizi böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən sizin Allah yanında ən hörmətliniz, sizin ən**

**pəhrizkarınızdır.**[1] **Həqiqətən Allah, çox Bilən və Xəbərdardır**.»[2]

Bu şərif ayədə Allah-təala, insanların meyar və dəyər ölçüsünü onların cinsiyyətində, nəsəb və məqamında, eləcə də rəngində, dilində, milliyyətində, filan coğrafi məntəqədən olmasında qərar verməmişdir. Allah dərgahında ən dəyərli - təqva[3] və saleh əməl bildirilir.

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

«**Sizin üçün onlarla aramlıq tapasınız deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır**.»[4]

Bu gözəl ayədə Allah-təala, qadın xilqətini Öz nişanə və əsərindən biri hesab etmişdir. Yəni İslam, qadına dəyər verərək, onu Allahın bir nişanəsi bildirir. Qadın, məhəbbət və rəhmətin baiskarı olaraq tanıtdırılır. Qadınla kişi (ər-arvad) məhz bir-birinə bağlandıqda kamilləşir və ondan qabaq isə naqisdirlər. Bu ayədə maraqlı bir nöqtə də ondan ibarətdir ki, Allah-təala ayənin sonunda bildirir ki, bu mətləb təfəkkür edib düşünənlər üçündür. Əgər bir kəs aqil və ədalətlidirsə, düşünər ki, qadın və kişi bir-birinin mükəmməlidirlər.

Allahın Elçisi **(salləllahu ələyhi və alihi və sələm)** buyurur: "Hər kəs həyat yoldaşının üzünə bir sillə vursa,

---

[1] Əslində pərhiz.
[2] "Hucurat" surəsi, ayə 13.
[3] Haramlardan çəkinib vacib əməlləri yerinə yetirmək.
[4] "Rum" surəsi, ayə 21.

Qiyamət günündə Allah-təala Cəhənnəmin malikinə əmr edəcək ki, atəşdən onun üzünə yetmiş sillə vursun."[1]

Minlərlə ayə və hədislər "**İslamda qadının dəyəri yoxdur**" anlayışını tamamilə batil edir və İslama atılan bir böhtan olduğunu üzə çıxardır.

Qadınlar, yalnız və yalnız hicablarına riayət etməklə kamilliyin ən uca mərtəbələrinə yetişə və azğınlıq təhlükələrindən amanda qala bilərlər. Qadının hicab məsələsi əsla Qərbin mədəni təzyiqlərinə məruz qalmamalı və müsəlman qadınlar yad mədəniyyətlərin təsiri altına düşməməlidirlər.

## *ŞEİR*

Sənədir, gözəl bacım, eşit mənim sözlərimi!
Qadının gözəlliyi, lətafəti hicabdadır,
O anı bircə düşün, hicabsız nə edər qadın?
Saf olan bir xanımın ləyaqəti hicabdadır.

Hər adam qılsa namaz, Allahına hörmət edər,
Eşqi var bəndəsinə, Allah ona rəhmət edər,
Hicab örtməyən qadın, həyatını zülmət edər,
Çün onun cismi-bədən ibadəti hicabdadır.

Qadının gözəlliyi nə qaşda, nə gözündədir,
Nə də ki, nuri- sifət, huri- mələk üzündədir,
Arasan gözəlliyin, bil ki, onun içindədir,
Həzrəti Fatimənin əmanəti hicabdadır.

[1] "Mustədrəkul-vəsail", c.14, səh. 250.

Hələ bir xəyal edir, qərbsayağı geyim geyir,
Soruşanda küfr edir, "mən də müasirəm!"- deyir,
Çəkirəm Allah adın, əsəbləşir, ağız əyir,
Nə qədər deyim, qadın fərasəti hicabdadır.

Şeytan onu aldadırsa, nədən qadın qarışmayır?
Yürütməyir bircə fikir, fikir başa yığışmayır,
Utanır, həya edir, ya içinə sığışmayır,
Görəsən, zəmanənin xəcaləti hicabdadır?!

## *NAMƏHRƏMDƏN EHTİYATLI OL!*

**Əziz bacım!** Xalqımızın hicabsız qadınları, hətta bəzi hicablılar belə "**naməhrəm**"in kimə aid olduğundan xəbərsizdirlər. Onlar elə düşünürlər ki, bəzi qohumlar naməhrəm deyil və buna görə də onlarla əl verib görüşmək və ya öpüşmək olar. Halbuki, bu belə deyil. Qadınlar bilməlidir ki, naməhrəm qohumların və yad kişilərin önündə hicabsız olmaq, yaxud onlarla öpüşüb-görüşmək qadağandır. Qadın (yaxud kişi) hər hansı bir naməhrəmə toxunanda, həqiqətdə özünü atəşə atmış olur.

Həzrət Peyğəmbər **(salləllahu ələyhi və alihi və səlləm)** buyurur: "Hər kəs naməhrəm qadınla əl verib görüşsə, Qiyamət günü onları zəncirlə məhşərə gətirərlər və Allah-təala əmr edər ki, onları Cəhənnəmə atsınlar."[1]

---

[1] Şeyx Səduq, "Səvabul-əmal", səh. 283.

**Əziz bacım!** Yeri gəlmişkən qadın üçün məhrəm olanları qısa surətdə sənə bildirmək istəyirəm. Xahiş edirəm diqqətlə oxu və dinimizin qanunlarına hörmət et ki, bu dünya və Axirətdə peşman olmayasan!

Xanıma məhrəm olan kişilər aşağıdakılardır:

1-Ata, atalıq (ögey ata), baba və atanın atası, atanın babaları və bu silsilədən olan bütün babalar.

2-Ananın atası, ananın babası və bu silsilədən olan bütün babalar.

3-Xanımın qardası, qardaşının oğlanları, bacısının oğlanları və bu silsilədən olan bütün nəvə-nəticələr.

4-Xanımın həyat yoldaşı, həyat yoldaşının ata-babaları. Həmçinin xanımın doğma və ögey oğlanları və nəvə-nəticələri.

5-Xanımın dayısı, əmisi, anasının dayısı və əmisi. Həmçinin atasının dayısı, əmisi və bu silsilədən olan əmi və dayılar.

6-Xanımın qızının həyat yoldaşı (kürəkən) və qızının bütün oğlanları və nəvə-nəticələri.

7-Qeyri-muməyyiz[1] uşaqlar.

8-Xanımın süd verdiyi körpə oğlan uşağı.

9-Qeyri-müsəlman qadınlar. Amma əgər hicablı xanım, qeyri-müsəlman qadının yanında örtünməsə və ehtimal versə ki, o (qeyri-müsəlman qadın) gedib hicablı xanımın saçının gözəlliyini ərinə danışacaqsa, onda hicablı xanım onun yanında örtünməlidir.

Bunlardan başqa, yerdə qalan kişilərin hamısı sənə **naməhrəm** sayılır. Hətta dayıoğlu, xalaoğlu, əmioğlu, bibioğlu və s. Bəziləri etiraz edib deyirlər ki, "axı əmioğlumu mən qardaş hesab edirəm. Onunla

---

[1] Yaxşı və pisi başa düşməyən körpə oğlanlar.

uşaqlıqdan bir yerdə böyümüşəm. Biz, bacı-qardaş kimiyik və bu kimi sözlər...”

Lakin qəbul etmək lazımdır ki, Allah-təala Hikmət Sahibidir və O, hikmətsiz bir şey buyurmaz. Bəzən bizim xoşumuza gəlməyən şeylər faydalı və xoşumuza gələn şeylər isə zərərli ola bilər:

وَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ وَعَسَى أَن تُحِبُّواْ شَيْئًا وَهُوَ شَرٌّ لَّكُمْ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ

**«Çox vaxt bir şeyi xoşlamırsınız, halbuki o sizin üçün xeyirlidir və çox vaxt bir şeyi xoşlayırsınız, halbuki o sizin üçün pisdir. Allah bilir, siz isə bilmirsiniz.**»[1]

**Əziz bacım!** İslam dini naməhrəmlə münasibət quran zaman bəzi ədəb qaydalarına riayət etməyi tövsiyə edir. Əgər nə vaxtsa, bu iş sənə zəruri olarsa, onda bir neçə nöqtəyə diqqət etməni istərdim:

1-**Bəyənilən şəkildə danışmaq**: Qurani-Kərimdə Həzrət Yusif[2] **(ələyhissalam)** haqqında oxuyan zaman görürük ki, Züleyxa və Misir qadınları Yusiflə **(ələyhissalam)** ünsiyyət qurmağa çalışırlar. O Həzrət, bu ünsiyyətdə təhrikedici rəftarların olduğunu bildiyi üçün Allaha belə dua edir:

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ وَإِلاَّ تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُن مِّنَ الْجَاهِلِينَ

**«Dedi: Ey Rəbbim, mənim üçün zindan bunların məni dəvət etdiklərindən daha xoşdur və əgər bu**

---

[1] “Bəqərə” surəsi, ayə 216.

[2] Əslində Yusuf.

**qadınların məkr və hiyləsini məndən dəf etməsən, onlara meyl edər və nadanlardan olaram**.»[1]

Bu ayədən naməhrəm qadınla ünsiyyətin təhlükəli olduğunu görmək olur. Hətta peyğəmbərlik məqamında olan birisi ondan qorxur. Zindana getməyə hazırdır, lakin onlarla ünsiyyət qurmağa razı deyil.

2-**Naməhrəmlə zarafat etməmək:** Naməhrəmlə zarafat etmək - arada olan sərhədi zəiflədər və günaha batmaq ehtimalını gücləndirir. Ona görə də İlahi övliyalar həmişə insanları naməhrəmlə zarafat etməkdən çəkinməyi tövsiyə edərdilər.

Həzrət Peyğəmbər **(salləllahu ələyhi və alihi və sələm)** buyurur: "Naməhrəm qadınla (yaxud kişi ilə) zarafat edib danışanı, hər kəlməsinə görə Cəhənnəmdə min il həbs edərlər."[2]

İmam Sadiqin **(ələyhissalam)** şagirdlərindən olan Əba Bəsir nəql edir ki, Kufədə bir qadına Quran öyrədirdim. Bir gün onunla zarafat etdim və Mədinədə İmam Baqirin **(ələyhissalam)** xidmətinə gələndə məni danladı və buyurdu: "Xəlvətdə günaha batan şəxsə, Allah etina etməz. O qadına nə dedin?"

Xəcalətdən üzümü bağladım və tövbə etdim. Həzrət buyurdu: "Bir daha təkrar etmə!"[3]

3-**Danışan zaman təvazökarlıqdan uzaq olmamaq**: Əgər naməhrəmlə ünsiyyət qurmaq zərurəti yaranıbsa, gərək elə sözlər və kəlmələrdən istifadə edəsən ki, təhrik yaratmasın. Qarşı tərəf vəsvəsəyə düşməsin. Bəzi qızlar, yaxud qadınlar naməhrəmlə danışanda səsini naziklәşdirir, özünü ona sevdirmək və bəyəndirmək

---

[1] "Yusuf" surəsi, ayə 33.

[2] "Vəsailuş-şiə", c.20, səh.198, Şeyx Hürr Amuli.

[3] "Biharil-ənvar", c.46, səh. 247.

üçün naz-qəmzə ilə danışırlar. Bil ki, bu günahdır və insanı atəşə sürükləyir. Allah-təala Əziz Peyğəmbərin **(salləllahu ələyhi və alihi və səlləm)** həyat yoldaşlarına belə əmr edir:

يَا نِسَاء النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِّنَ النِّسَاء إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَّعْرُوفًا

«**Siz, ey Peyğəmbərin zövcələri! Siz təqvalı olsanız, başqa (adi) qadınlar kimi deyilsiniz. Buna görə də danışığınızda naz-qəmzə və işvə etməyin ki, qəlbində (günah, pozğunluq) xəstəliyi olan kəs tamaha düşməsin! Gözəl (təhrik və işvədən uzaq) danışın!**»[1]

4-**Zərurət olduğu qədər danışmaq**: Həzrət Musa **(ələyhissalam)** Misirdən çıxır və Mədainə gəlir. Bir dəstə insanlar görür ki, su quyusunun ətrafında toplaşıblar. Bir qədər aralıda isə iki qadın dayanıb və onlar tək halda qoyunları otarırlar. Musa Peyğəmbər **(ələyhissalam)** onların bu rəftarından təəccübləndiyi üçün soruşur: "Sizin işiniz nədir? Niyə qoyunlarınıza su vermirsiniz?" Onların arasında olan danışıq zəruri həddi keçmir və hətta Həzrət Musa **(ələyhissalam)** qoyunlara su verəndə onlardan fasilə saxlayır və danışmır. Bu da naməhrəmlə sərhədin hədlərini müəyyən edir.

5-**Xəlvətdə olmamaq**: Naməhrəmlə xəlvətdə qalmaq, dinimiz tərəfindən həmişə məzəmmət edilmiş və bəyənilməmişdir. Əgər naməhrəmlə ünsiyyət qurmağın zəruridirsə, gərək elə bir məkanda olasan ki, başqaları da ora daxil olub çıxa bilsinlər, yəni qapı bağlı olmasın. Çünki xəlvətdə qalmaq - şeytanın ən böyük silahıdır və insanı asanlıqla günaha düçar edə bilər.

---

[1] "Əhzab" surəsi, ayə 32.

İmam Sadiqin **(əleyhissalam)** tərəfdaşlarından olan Muhəmməd Təyyar nəql edir ki, Mədinəyə daxil oldum, bir müddət orada qalmaq istəyirdim. Ona görə də kirayəlik ev axtarırdım. İki otağı olan bir ev tapdım. Onların birində cavan bir qadın qalırdı. Lakin otaqlar bir qapı ilə bir-birindən ayrılırdı. Otaqların bir-birinə yolu olduğu üçün onu tutmaqdan imtina etdim. Ancaq bu qadın dedi ki, əgər siz kirayə etmək istəyirsinizsə, mən bu qapını həmişə bağlı saxlayaram. Mən də bu şərtlə qəbul etdim. Bir müddət sonra qadın otağın havasını dəyişmək bəhanəsi ilə qapını açıq qoyur və bağlamaq istəmirdi. Mən də İmam Sadiqin **(əleyhissalam)** xidmətinə getdim və macəranı ona danışdım. Həzrət buyurdu: "Əgər qadınla kişi xəlvət edərsə, şeytan üçüncüsü olar."[1]

6-**Sərhədləri qorumaq:** Naməhərmlə ünsiyyət zamanı fasiləniz kifayət qədər çox olarsa, imanınız sağlam qalar. Allah-təala "Əhzab" surəsinin 53-cü ayəsində Əziz Peyğəmbərin **(salləllahu əleyhi və alihi və səlləm)** səhabələrinə əmr edib buyurur:

وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِن وَرَاءِ حِجَابٍ ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ

**«Əgər onlardan (Peyğəmbərin zövcələrindən məişət ləvazimatlarından) bir şey istəsəniz, pərdə arxasından istəyin! Bu - həm sizin, həm də onların qəlbləri üçün daha təmiz olar**.»

7-**Bəzənməkdən çəkinmək:** Naməhrəm qarşısında olan zaman geyiminə diqqət et və bəzənib kosmetikadan istifadə etmə! Geyimin və bəzənməyin elə olmalıdır ki, qarşı tərəfi təhrik etməsin.

---

[1] "Mustədrəkul-vəsail", c.14, səh.265.

Allahın Elçisi **(salləllahu ələyhi və alihi və sələm)** buyurur:- “Hər bir qadın ərindən başqası üçün ətirlənib çölə çıxsa və naməhrəm onun ətrini duysa, onun heç bir namazı qəbul olmaz. İbadətləri qəbul olsun deyə (əməlindən tövbə edib), cənabətdən qüsl aldığı kimi bu ətirlənməyə görə də qüsl almalıdır.”[1]

Yenə də buyurur: “Ətirlənib çölə çıxan qadın evə qayıdana kimi Allah və Onun mələkləri həmin qadına lənət edərlər.”[2]

Həm qadınlardan və həm də kişilərdən çoxlu sayda ehtiyatlı məsələlərə riayət etmək tələb olunubdur. Çünki belə məsələlərə riayət etməmək günahlara düşmək ehtimalını çoxaldır. Bu xəbərdarlıqlar, əslində hər bir müsəlman qadın və kişidən ayıq olmağı tələb edən təhlükə zəngləridir.

8-**Gözləri və başqa bədən üzvləri qorumaq**: Allah-təala gözə bəzi şeylərə baxmağı haram buyurubdur. “Nur” surəsinin 30 və 31-ci ayələrində bu barədə işarə olundu. Gözdən əlavə insanın o biri bədən üzvləri də məsuliyyət daşıyır və Qiyamətdə onlar, insanın etdiyi günahlara görə şəhadət verəcəklər:

حَتَّى إِذَا مَا جَاؤُوهَا شَهِدَ عَلَيْهِمْ سَمْعُهُمْ وَأَبْصَارُهُمْ وَجُلُودُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ وَقَالُوا لِجُلُودِهِمْ لِمَ شَهِدتُّمْ عَلَيْنَا قَالُوا أَنطَقَنَا اللَّهُ الَّذِي أَنطَقَ كُلَّ شَيْءٍ وَهُوَ خَلَقَكُمْ أَوَّلَ مَرَّةٍ وَإِلَيْهِ تُرْجَعُونَ

**«Nəhayət, onların hamısı Cəhənnəmə çatanda qulaqları, gözləri və dəriləri onlara qarşı, (dünyada) etdikləri günahlar görə şəhadət verərlər. Onlar öz dərilərinə deyərlər: Nə üçün bizim əleyhimizə şəhadət verirsiniz? (Dəriləri) deyərlər: Bizi hər şeyi (bütün**

---

[1] “Furuu-kafi, c. 5, səh. 508. Şeyx Kuleyni.
[2] “Səvabul-əmal və iqabul-əmal”, səh. 559.

**danışanları) dilə gətirən Allah danışdırdı. Sizin hamınızı ilk dəfə O yaradıb və indi (də) Ona tərəf qaytarılırsınız.**»[1]

Bəziləri bu ayəni eşidərkən təəccüblə soruşurdu: “Məgər əl-ayaq, qulaq və göz də danışarmı?”

Doğrudan da insan çox vaxt dərin bir qəflətdə olur. Nəfsi istəkləri onun qəlbini, gözlərini və qulaqlarını tutur. Bu zaman o, ya həqiqəti eşitmək istəmir, ya da özünü eşitməməzliyə vurur. Ona demək lazım: “Bir özünə diqqət et, bax gör hal-hazırda səndə olan bir ət parçası (dil) danışa bilirsə və bu mümkündürsə, onda Qiyamətdə başqa ət parçalarının danışması mümkün deyilmi? Əgər Allah-təala dilimizi səsləndirməyə Qadirdirsə, onda başqa bədən üzvlərimizi səsləndirməyə Qadir deyilmi?”

Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** Allah-təaladan belə nəql edir: “Haram baxış İblisin zəhərli oxlarından biridir. Yalnız Mənə görə gözlərini naməhrəmdən qoruyan şəxsə bunun əvəzində elə bir iman verəcəyəm ki, onun ləzzətini qəlbində duyacaqdır.”[2]

Həmçinin buyurur: “Hər bir üzvün özünəməxsus zinası var. Gözün də zinası naməhrəmə baxmaqdır.”[3]

9-**Naməhrəmə toxunmaq qadağandır**: Həzrət Muhəmməd **(salləllahu ələyhi və alihi və səlləm)** müsəlman qadınların cəmiyyətdə siyasi və ictimai işlərdə iştirakına icazə verməklə yanaşı, səsvermə zamanı kişilər kimi onlarla əl verib görüşmür. Əksinə, sərhəddi qoruyur və müsəlman aləminə naməhrəmin bir-birilə əl verib

---

[1] “Fussilət” surəsi, ayə 20-21.
[2] “Mizanul-hikmət”, c. 10, səh. 78.
[3] “Biharul-ənvar”, c. 104, səh. 36

görüşməsinin qadağan olduğunu Öz əməlində nümayiş etdirir. Buna misal olaraq, Mədinədə İslam Peyğəmbəri **(salləllahu ələyhi və alihi və səlləm)** dövlət qurarkən səsvermə (yəni, beyət və itaət, sözvermə) zamanı kişilərlə əl ilə görüşür, qadınlarla isə bir qab su gətizdirir. Sonra öz mübarək barmağını suya qoyur və hər beyət edən qadına barmağını suya batırması ilə kifayətlənməsini bildirir.

İmam Sadiq **(ələyhissalam)** buyurur: "Naməhrəm ilə əl verib görüşənlər, Qiyamət günü zəncirlə gətirilər və əmr edilər ki, Cəhənnəmə atılsın."[1]

## *MERAC GECƏSİ QADINLAR HAQQINDA BİR HƏDİS*

**Əziz bacım**! İllər öncə qəlbləri titrədən bir hədislə rastlaşdım. Bu hədisdə on sifətə malik olan müsəlman qadınlardan söhbət gedir. Hədis belədir:

İslamın etibarlı ravisi[2] Əbdüləzim Həsəni, İmam Cavaddan **(ələyhissalam)**, O Həzrət də ataları vasitəsi ilə İmam Əlidən **(ələyhissalam)** belə nəql edir: "Mən və Fatimə **(salamullahi ələyha)** Peyğəmbərin **(salləllahu ələyhi və alihi və səlləm)** yanına getdik. Onun ağladığını gördük. Ərz etdim: Atam, anam sənə fəda olsun! Ağlamağınızın səbəbi nədir? Buyurdu: Meraca aparıldığım gecə ümmətimin bəzi qadınlarını gördüm. Çox şiddətli əzab içində idilər. Onları bu şəkildə görcək, məni ağlamaq tutdu.

---

[1] "Vəsailuş-şiə", c.20, səh. 198, Şeyx Hürr Amuli.

[2] "Rəvayət edən."

Sonra Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** davam edib buyurdu:

-Başının qabağının tükü ilə Cəhənnəm divarından asılmış bir qadın gördüm. Əzabın şiddətindən beyni qaynayırdı.

-Dili ilə Cəhənnəm divarına bağlanmış bir qadın gördüm. Cəhənnəmin ən isti və çirkli maddəsini onun ağız və boğazına tökürdülər.

-Sinəsi Cəhənnəm divarına yapışdırılmış bir qadın gördüm.

-Cəhənnəmdə iki ayağından asılmış bir qadın gördüm.

-Öz bədəninin ətini yeyən bir qadın gördüm. Belə ki, ətindən od yağırdı.

-Əli və ayağı bağlanılmış bir qadın gördüm. Ona çoxlu ilan və əqrəb hücum etmişdi. O, özünü heç cür müdafiə edə bilmirdi.

-Kor, kar və lal bir qadın gördüm. Onu od dolu bir tabuta qoymuşdular. Bədəninin dərisi və əti cüzam xəstəliyinə tutulmuş adamın dərisi və əti kimi tikə-tikə olaraq yerə tökülürdü.

-Üzü və bədəni od tutub yanan bir qadın gördüm. Onu pəncələri ilə qarnındakıları çıxarıb yeməyə vadar edirdilər.

-Başı donuz başı, bədəni ulaq bədəni olan bir qadın gördüm. Ona çoxlu əzab verilirdi.

-İt sifətində olan bir qadın gördüm. Od arxasından daxil olub ağzından xaric olurdu. Əzab mələkləri Cəhənnəm alətləri ilə onun başına və bədəninə vururdular.

Həzrət Zəhra **(salamullahi ələyha)** ərz etdi: Mənim məhbubum, gözümün işığı, onların bu dünyada nə

etdiklərini və nə üçün bu növ əzablarla qarşılaşdıqlarını mənə söylə!

Allahın Elçisi **(sallallahu ələyhi və alihi və səlləm)** buyurdu:

-Başının qabağının tükü ilə Cəhənnəm divarından asılan qadın, başının qabağının tükünü naməhrəmdən qorumamışdır.

-Dili ilə Cəhənnəm divarına bağlanmış qadının əri, onun dil sancmalarından amanda qalmamışdır.

-Sinəsi Cəhənnəm divarına yapışdırılmış qadın, öz ərinin cinsi tələblərini ödəməmişdir.

-Cəhənnəmdə iki ayağından asılmış qadın, icazəsi olmadan istədiyi yerə gedirmiş.

-Öz bədəninin ətini yeyən və ətindən od yağan qadın, ərindən qeyrisi üçün bəzənir və öz bəzəyini naməhrəm kişilərə göstərirmiş.

-Əli və ayağı bağlanıb ilan, əqrəb hücumuna məruz qalan qadın, namazı yüngül sayar, özünü nəcasət, cənabət və heyzdən paklayıb qüsl verməzdi.

-Kor, kar və lal qadın, ərindən başqası ilə cinsi əlaqədə olub, övlad doğurmuş və onu öz ərinin boynuna atmışdır.

-Od tutan qayçı ilə əti doğranan qadın, özünü yad kişilərin ixtiyarına vermişdir.

-Üzü və bədəni od tutub yanan, pəncələri ilə qarnındakıları çıxarıb yeməyə vadar edilənlər, fahişəlik üçün vasitəçilik edər və qadınları cinsi tələblərini doyurmaq üçün kişilərin ixtiyarına verərmişlər.

-Başı donuz, bədəni isə ulaq bədəni olan və milyonlarla əzaba məruz qalan qadınlar, ara vurar və yalançılıqla məşğul olarmışlar.

-İt sifətində olan, od arxasından daxil olub ağzından xaric olan qadın isə eyş-işrət məclislərində xanəndəlik edər və həsəd xəstəliyinə bulaşmış idi.”

**Əziz bacım!** İlk dəfə bu hədisi oxuyandan sonra çox narahat oldum. Axı nə üçün müsəlman qadınlar əzab içində olmalıdırlar?! Axı nə üçün əbədi olan Axirəti, müvəqqəti olan bu dünyaya satmalıdırlar?! Özünüzə yazığınız gəlmirmi?! Hər dəfə bu və bu kimi hədislərə rast gələndə yadıma “Əraf” surəsinin 179-cu ayəsi düşür:

وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِّنَ الْجِنِّ وَالإِنسِ لَهُمْ قُلُوبٌ لاَّ يَفْقَهُونَ بِهَا وَلَهُمْ أَعْيُنٌ لاَّ يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لاَّ يَسْمَعُونَ بِهَا أُوْلَـئِكَ كَالأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ أُوْلَـئِكَ هُمُ الْغَافِلُونَ

«**Doğrudan da Biz cin və insanların çoxunu Cəhənnəm üçün yaratmışıq. Çünki onların qəlbləri var, amma onunla (həqiqətləri) dərk etmirlər, onların gözləri var, lakin onunla (ibrət üçün) baxmırlar və onların qulaqları var, amma onunla (haqq maarifi) eşitmirlər. Onlar heyvanlar kimi, bəlkə (onlardan) daha azğındırlar və qəflətdə olanlar məhz onlardır**.»

## *HİCABIN ƏHƏMİYYƏTİ*

**Əziz bacım!** Müasir dövrümüzdə hicab - qlobal bir mövzulardan sayılır və ictimaiyyətin sabitliyinin qorunmasında ən mühüm rol oynayır. Sağlam bir cəmiyyət yaratmaq üçün qadının özünə, hicabına və təmizliyinə diqqət yetirməsi əhəmiyyətlidir.

Hicab o qədər əhəmiyyətlidir ki, bunu müsəlman xanımların hiss və dərk etməsi zəruridir. Çünki bu

müqəddəs "**dəyər**"in üstündə əsrlər boyu qanlar axıdılmışdır.

Kərbəla, insanlar üçün ibrətlər meydanıdır. Ağır və müsibətli Aşura günündə bir sıra səhnələrlə üzləşirik. Ürəkləri yandırıb-yaxan bu gündə baş verənlərdən biri də "**hicabın və iffətin qorunması**" səhnəsidir. Belə ki, İmam Hüseyn **(əleyhissalam)** meydanda tək qalanda xanımlara belə xitab edir: "Çadralarınızı möhkəm bağlayın ki, qarətçilər sizə hücum edəndə hicabınızı qoruya biləsiz!"

Nəhayət, düşmənlər Həzrətin mübarək başını bədənindən ayırandan sonra xeymələrə hücum çəkib qarət etməyə başlayırlar. Həzrət Zeynəb **(salamullahi ələyha)** qarətçilər tərəfindən məruza qalmasınlar deyə, bütün qızlara və qadınlara əmr edir ki, üstlərində olan zinət əşyalarını çıxarıb düşmənə tərəf tullasınlar. Onlar da xanımın dediyini edirlər.

Hicab o qədər əhəmiyyətlidir ki, Həzrət Fatimə **(salamullahi ələyha)** kənizi Əsmaya vəsiyyət edib buyurur ki, cənazəmi dəfn etməyə apararkən tabutun üstünə əlavə bir parça sal ki, bədənimin cizgilərini naməhrəmlər görməsin.

## *ŞEİR*

Hicab hər mömінənin ismətidir, iffətidir,
Adıdır, namusudur, mənliyidir, qeyrətidir,
İzzidir, şənidir, ülviyyəti, həm şövkətidir,
Elə fərz eylə xanım, güldü-təravətdi hicab.

Saxlayın məndən əmanət - dedi Zəhra, hicabı!
Kərbəlada qorudu Zeynəbi-Kubra hicabı,
İndi isə qalıb əllərdə Rüqəyya hicabı,
Ya şərafətsiz ömür, ya şəhadətdir hicab.

İstəsən Tanrı yanında olasan, şəni əziz?
Pərdeyi isməti cəhd eyləyəsən, saxla təmiz!
Ta bu əxlaq ilə ol, Həzrəti-Zəhraya kəniz!
Ondan al dərsi həyatda, gör nə şərafətdir hicab!

Keçdi Zeynəb o zaman yeddi igid qardaşdan,
Gəldi fəryadi nəva səsləri dağdan-daşdan,
Yenə də atmadı əmma ki, hicabın başdan,
Ey bacım! Bax yola, gəl rahi-hidayətdir hicab!

Olma yırtılmış həya pərdəsi şeytan nökəri!
Keç həya məktəbin, ol bəxtəvərin bəxtəvəri!
Çün hicab əhlinin üstündədir həqqin nəzəri,
Həm bu dünyada, həm üqbadə şərafətdir hicab.

## *EY XANIM, NİKAH ZAMANI ÖZÜNÜ SIĞORTALA!*

**Əziz bacım!** Neçə il bundan qabaq yazdığım bir məqaləni bu kitabçada yada salmaq istədim. Nikah və talaq (boşanma) barəsində yazdığım bu mövzu cəmiyyətdə qlobal məsələlərdən sayılır. Belə ki, qadınlar ailə qurarkən lazımi şərtləri bilmədikləri üçün bir sıra problemlərlə üzləşir, hüquqları tapdalanır və həyatlarını zülmətdə keçirməyə məcbur olurlar. Sonrakı peşmançılıq isə fayda vermir. Bu zülmətə düşməmək üçün müqəddəs İslam dinimiz həll yollarını açıqlamışdır.

Dünyada, məxsusən Azərbaycanda boşanma problemi getdikcə artmaqdadır. Talaq - halal bir əməl olmasına baxmayaraq, Allah-təala dərgahında nifrət edici bir əməl sayılır. Əlbəttə ki, mənfur o talaqdır ki,

üzürlü bir səbəb olmadan verilmiş olsun. Amma əgər, bir kəsin talaq üçün məntiqi dəlili olsa, nifrət olunmayacaq. Əksinə, belə yerlərdə boşanmaq - çıxış yoludur. Lakin çox vaxt kişi öz həyat yoldaşına əziyyət versin deyə, ona talaq vermir və bu da xanımın ömür boyu başsız qalmasına, əzab-əziyyət içində yaşamasına səbəb olur. Yaxud öz ailəsini atıb Rusiyaya və ya uzaq ölkələrə çıxıb gedən kişi, başqa bir həyat yaşamını seçərək öz xanımından tamamilə uzaqlaşır və ona zülm etməklə bərabər Allahın ayəsinə (Bəqərə" surəsi, ayə 231) etinasız yanaşmış olur. Nəticədə talağı verilməmiş qadın başqa birisilə həyat qura bilməz və dinimiz tərəfindən onun başqasına ərə getməsi qadağandır. Xanımların bu problemlərlə üzləşməməsi üçün dinimiz çıxış yollarını öyrədir.

**Məsələnin çıxış yolları**:

1) Qadın ailə qurmazdan öncə özünü sığortalaya bilər. Belə ki, nikah oxunmamışdan qabaq xanımın əqdin kənarında şəriət qanunlarına zidd olmayan bir neçə şərti qoymağa ixtiyarı vardır. Məsələn:

---Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə nahaqdan zülm etsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

---Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə ibadət etməyə mane olsan, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

---Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə hicab bağlamağı qadağan etsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

---Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər məni altı aydan artıq tərk edib getsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm və s.

Beləliklə, xanımlar ailə qurarkən ehtiyatlı olmalı və necə deyərlər, qarşıya bir sıra çətinliklərin çıxmaması üçün öz hüquqlarını bilməlidirlər.

2) Əgər kişi müəyyən səbəblər (inadkarlıq, düşmənçilik, itgin düşmə və s.) üzündən xanımına talaq verməzsə, onda xanım şəriət hakiminə (müctehidə) və ya onun nümayəndəsinə müraciət etməlidir. Şəriət hakiminə hamının əli çatmadığı və bu məsələ çox çətin olduğu üçün bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da onun nümayəndəsi mövcuddur. Həmin nümayəndəyə müraciət etməklə talaq baş tuta bilər. Bir az da ətraflı desək, xanım ya məktub vasitəsilə, ya da hüzuri surətdə nümayəndəyə müraciət etməli və ailəsində olan bu müşkülü ona bildirməlidir. Nümayəndə məsələni araşdırandan sonra bu müşkülü həll etməlidir.

**Mühüm bir mətləb**:

Bildiyimiz kimi, şəri nikah (kəbin), dövlət nikahından[1] fərqlidir. Belə ki, əgər müsəlman bir ailə şəri nikahla evlənibsə, boşanmaq istəyərkən şəri talağın oxunması vacibdir. Əks halda, onlar illərlə ayrı yaşasalar belə, yenə də həqiqi ər-arvad sayılırlar. Amma dəfələrlə şahidi olmuşuq ki, bilməməzlik üzündən həm kişi, həm də qadın şəri talaq oxumadan bir başqası ilə kəbin oxutdurur və özlərini bir-birinə həqiqi ər-arvad hesab edirlər. Yəni, əvvəlki ərindən şəri talaq almayan bir qadın, müəyyən müddətdən sonra başqa bir kişi ilə kəbin kəsdirir və beləliklə, onlar ər-arvad kimi yaşamağa başlayırlar. Həqiqətdə isə onlar bir-birinə naməhrəm sayılır və böyük bir günaha (zinaya)

---

[1] VVAQ (azərb.), ZAQS (rus.).

mürtəkib olurlar! Bu günahdan qurtulmaq üçün onlar təcili surətdə ayrılmalı və tövbə etməlidirlər. Hətta tövbə etdikdən sonra belə, onlar əbədi olaraq bir-birinə naməhrəm sayılırlar və heç vaxt bir-birilə evlənə bilməzlər. Yəni, əgər qadının həqiqi əri ona talaq versə belə, o qadın zina etdiyi həmin naməhrəm kişi ilə artıq nə şəri nikah oxutdura bilər və nə də birlikdə yaşaya bilər.

**Qeyd**: Talaqdan sonra xanımlar dərhal ailə qura bilməzlər. Bunun üçün onlar iddə gözləməlidirlər. İddə - bir müddətdir ki, boşanmış, yaxud əri ölmüş qadın həmin müddəti gözləmədən ərə gedə bilməz. İddə - boşanmış qadın üçün 3 ay,[1] əri ölmüş qadın üçün isə 4 ay 10 gündür.

***Daha ətraflı məlumat almaq üçün***: Qurani-Kərim, Bəqərə surəsi, 228, 230, 232, 234, 236 və 237-ci ayələri, həmçinin Əhzab surəsi, 49-cu ayə, Talaq surəsi, 1-ci ayə, Təhrim surəsi, 5-ci ayə və "**Şəriət məsələlərinin izahı**",[2] kitabının "talağın iddəsi" - bölməsi.

Allah-Təala Əhli-beytin **(ələyhimussalam)** xatirinə bütün müsəlman ailələrinə səadət və bərəkətli ömür nəsib eləsin.

## *ŞƏHİDLƏRİN HİCAB BARƏSİNDƏKİ TÖVSİYƏLƏRİ*

-Əziz bacılarım! Biz bu kafir düşmənlə cəbhədə vuruşduğumuz kimi, siz də səbirlə daxili düşmənlərə

---

[1] Müvəqqəti əqddən boşanan xanımın iddəsi təxminən 2 aydır.
[2] Risalə.

qarşı örtüyünüzlə vuruşun! Çünki bizim qələbəmiz, bizimdir.

-Əziz bacım! Sənin hicabın şəhidlərin qanından üstündür, çünki düşmən, şəhidlərin qanından qorxmazdan əvvəl sənin onu əzəcək örtüyündən qorxur.

-Əziz bacım! Örtüyünü qılınc kimi saxla və həyatda səbirli ol!

-Əziz bacılarım! Xahiş edirəm, örtüyünüzü və təmizliyinizi qoruyun və şəhidlərin qanını hicabınızla örtün!

-Əziz bacım! Məsləhətim təkcə sənə deyil, bütün qadınlara və qızlaradır. Heç olmasa, sizin üçün tökdüyümüz qanı - tapdalamağa çalışmayın!

-Ey bacılar! Sizdən iki istəyim var: Birincisi, hicabınızı həmişə qoruyun! İkincisi isə övladlarınızı nəzakətli və düzgün tərbiyə edin!

-Ey bacım! Dağ kimi möhkəm ol! Həzrət Zeynəbin **(salamullahi ələyha)** yolunu özünə nümunə seç və şəhidlərin əzəmətli misiyasını yerinə yetir!

-Siz bacılardan xahiş edirəm ki, dinə etiqadlı olun və kamil sürətdə örtüyə riayət edin, əks halda Allah sizdən razı olmayacaq.

-Ey mənim din bacım! Səni əhatə edən hicabın, mənim qırmızı qanımdan daha üstün və daha qiymətlidir.

-Əziz bacım! Sənin hicabın münafiqlərə və İslam düşmənlərinə güclü bir yumruq vurur.

-Əziz bacım! Sənin Allah yolunda cihadın – hicabındır.

-Əziz bacım! Hicab, səni düşməndən qoruyan bir qaladır. Sən düşməni həmin qaladan görürsən, düşmən isə səni görmür.

-Ey bacılar! Bu dünya sürətlə gedir və tezliklə hamınız İlahi sınağa gələcəksiniz. Sonra isə sizdən soruşacaqlar: Həzrət Fatimənin **(salamullahi ələyha)** yolunu getdinizmi? Nə cavab verəcəksiniz?

-Əziz bacım! Şəhidlərin qanını yalnız hicabla qoruyub ucalda bilərsiz.

-Ey bacım! Sənin örtüyün mənim qanımdan daha da müqəddəs və güclüdür. Sən bu müqəddəs silah vasitəsilə İslam düşməninin belini qıra bilərsən.

-Əziz bacılar! Allahınköməkçiləri olmaq üçün hicaba bürünün! Dünyada ucalmaq istəyirsinizsə, örtüyünüzü qoruyun!

-Əziz bacım! İmam Hüseyn **(ələyhissalam)** İslamı Öz mübarək qanı ilə suvardığı kimi, biz şəhidlər də dinimizi öz qanımızla suvardıq. Sən də dinimizi öz hicabınla suvar və həmişə yaşat!

-Ey bacım! Bil ki, sənin hicabın mənim qanımdan daha incədir. Qanımız və hicabınız - Allaha xatir İslam qanunlarını qorumaq və yaşatmaq üçündür, buna görə də İslamın qanunlarını həmişə qorumağa çalış!

-Əziz bacım! Qanımın dəyərini öz hicabınla qoru! Bil ki, şəhidlərin qanına borclusan, çünki sənin örtüyün düşməni məhv etməyə daha böyük təsir göstərəcəkdir.

-Əziz bacılar! Fatimeyi-Zəhradan **(ələyhəssalam)** və Zeynəbi-Kubradan **(ələyhəssalam)** hicabı öyrənməklə yanaşı azadlıq və yaşamaq dərslərini də Onlardan öyrənin!

-Ey bacım! Sənin hicabın, qanımla örtülmüş bir xəndəkdir. Əgər onu qorumasan, qanıma xəyanət edəcəksən.

-Əziz bacım! Hicab, Allah yolunda cihad kimidir. Elə isə bu cihaddan yorulma!

## *HİCAB MİSALLARDA*

**Əziz bacım**! Hicaba aid bir neçə misal çəkmək istərdim:

1-Hicablı xanım bir gül kimidir. Həmin gülün tikanı - naməhrəm üçündür. Qoxusu isə - öz məhrəmi üçündür.

2-Ümumi nəqliyyat vasitəsindən (taksi, avtobus, metro) camaat, lakin şəxsi maşından isə yalnız onun sahibi istifadə edir. Açıq-saçıq gəzən qadın da belədir. Onun gözəlliyindən camaat istifadə edir və ona baxıb ləzzət alırlar. Lakin hicablı qadın yalnız həyat yoldaşına məxsusdur və onun gözəlliyindən yalnız sahibi istifadə edir.

3-Müsəlmandan soruşurlar: "Niyə sizin qızlar başlarını bağlayırlar?" Müsəlman sual edən şəxsə biri açıq, digəri isə baglı iki konfet uzadır və deyir: "Birini seç!" Sual edən, baglı konfeti götürür. Müsəlman soruşur: "Nə üçün bağlı konfeti seçdin?" O şəxs cavab verir: "Çünki bu təmizdir." Müsəlman deyir: "Bu da öz sualının cavabı."

4-Qadın bir mirvaridir. Mirvari isə sədəf içində olar. Qadının sədəfi isə onun örtüyüdür.

5-Hər bir ətir - ağzı bağlı qabda yerləşir. Əgər onun qapağı açıq qalsa, iyi uçub gedəcək. İyi uçmuş bu ətirin suyu artıq faydasız olacaq. Qadın da bir ətirə bənzər. Əgər o, başını açsa, əzəməti və şəxsiyyəti itəcək. Qadın, məhz hicablı olduqda əzəmət və şəxsiyyət tapır.

6-Nə üçün evinizin divarını tikanlı məftillər ilə örtürsünüz? Evinizin divarları qısadırsa, nə üçün ucaldırsınız? Təbii ki, bütün bunlar, sizin rahatlığınız üçündür. Hicab da bir evin divarına və tikanlı məftillərinə bənzəyir. Qadının rahat və asudə yaşaması üçün bədənini örtməsi və qoruması zəruridir.

7-Hicab, təzəliyini və sağlamlığını qoruyub saxlayan meyvə qabığına bənzəyir. Qadınlar bu hicab vasitəsilə təravət, gözəllik, yenilik və sağlamlıqdan bəhrələnirlər. Lakin hicabı açan kimi sağlamlıq və gözəllik də aradan gedir.

8-Ümumiyyətlə, yer üzündə tapılan və hər kəs üçün asanlıqla əldə edilən bir şey, az əhəmiyyət kəsb edir. Amma bahalı əşyalara önəm verilir və diqqət edilir. Çünki ona xüsusi qayğı göstərilir. Məsələn, qızıl və zinət əşyaları etibarlı və ağır seyflərdə saxlanılır. Hicab-dəyər işarəsidir. Qadın da əhəmiyyət kəsb edən bir dəyərli varlıqdır. O, qorunmalı olan qiymətli bir inci kimidir. İslam, qadını varlığın qiymətli bir zərgəri və uca bir şəxsiyyəti hesab edir.

9-Bir ət parçası asıb onu örtməyəndə ona çoxlu milçək qonur və bulaşdırır. Qadın da açıq-saçıq gəzib bədənini yadlara göstərəndə və yad nəzərlər o qadına şəhvət hissi ilə baxıb ondan həzz alanda, bu baxışlar da o qadını həmin ət parçası kimi çirkləndirib murdarlayır. İylənmiş ət parçasını heç kəs almadığı kimi, həmin qadını da ağıllı və qeyrətli birisi almaz.

## *KORONA VİRUSU*

**Əziz bacım!** Yəqin ki, dünyaya yayılan "korona" adlı virusun insanların həyatına təsirini müşahidə etdin. Bu virus, tamamilə yaşayışı alt-üst etdi. Nizam-intizam bir-birinə dəydi. Bağçalar, orta məktəblər, institutlar, bir sözlə dövlət müəssisələri bağlandı. Bir ökədən başqasına, hətta bir şəhərdən digərinə getmək qadağan

olundu. Minlərlə insan bu dəhşətli virusdan həm xəstələndilər, həm də dünyasını dəyişdilər.[1]

Həqiqətən insanların əksəriyyəti nankordur.[2] Belə ki, onlara hər hansı bir çətinlik və bəla üz verərkən tez Allahı çağırar, öz əməllərindən peşman olduqlarını etiraf edər və bu bəladan qurtulmaq üçün hər bir vasitəyə əl atarlar. Həmin bəla uzaqlaşanda isə onlar yenidən etdikləri fitnə-fəsada qayıdarlar. Qurani-Kərim “Yunus” surəsinin 22-ci ayəsində belə buyurur:

حَتَّى إِذَا كُنتُمْ فِي الْفُلْكِ وَجَرَيْنَ بِهِم بِرِيحٍ طَيِّبَةٍ وَفَرِحُواْ بِهَا جَاءتْهَا رِيحٌ
عَاصِفٌ وَجَاءهُمُ الْمَوْجُ مِن كُلِّ مَكَانٍ وَظَنُّواْ أَنَّهُمْ أُحِيطَ بِهِمْ دَعَوُاْ اللّهَ
مُخْلِصِينَ لَهُ الدِّينَ لَئِنْ أَنجَيْتَنَا مِنْ هَـذِهِ لَنَكُونَنِّ مِنَ الشَّاكِرِينَ

«**Nəhayət, siz gəmilərdə olan və gəmilər öz sərnişinlərini xoş və mülayim bir küləyin vasitəsilə hərəkət etdirən və onlar ondan xoşhal olduqları zaman, (birdən) həmin gəmilərə şiddətli bir külək əsər, (dənizin) dalğa(sı) hər tərəfdən onlara çırpılar və onlar (dalğaların və bəlanın) mühasirəsində olmalarına yəqinlik edərlər, (o halda) iman və etiqadla, saf niyyətlə Allahı çağırarlar: Əgər bizi bundan (bu təhlükədən) qurtarsan, mütləq şükür edənlərdən olacağıq**.»

**Əziz bacım!** Diqqət etdinmi, pandemiyanın yayılması nəticəsində hicaba nifrət hissilə yanaşan, açıq-saçıq gəzən və Allah-təaladan qorxmayıb başını bağlamayan qadınlar, təbii gözlə belə görünməyən bir mikrobdan qorxub başlarını bağlamağa məcbur oldular.

[1] Hal-hazırda bu epidemiya davam edir. (aprel, 2020).
[2] “İsra” surəsi, ayə 67.

Bu barədə heç düşündünmü? Uca Allah hicabı tövsiyə edərək qadınların örtünməsini məsləhət bildi. O, hər gün insanları təmizliyə[1] çağırdı. Lakin insanların əksəriyyəti Allah-təalanın bu qanunlarını saymayıb ayaqları altına atdılar.

Belə olduqda, bir gün Qadir Allah beləlerinə dərs vermək və qəflət yuxusundan oyatmaq üçün məcburi olaraq nəinki hicabı, hətta bədən üzvlərinin hər yerini bağlatdırdı. Onlar virusun qorxusundan başlarını, ağızlarını, burunlarını və əllərini belə gizlətməyə məcbur oldular. Günlərlə əl-üzünü yumayan kəslər virusun qorxusundan hər gün mütəmadi olaraq sabunla əllərini və üzlərini yumağa başladılar. Hətta dua etməyi bacarmayan zalım dünya siyasətçiləri belə sağ qalsınlar deyə, öz qəsrlərində Allahı çağırdılar. Bir çoxları virusun adını eşitməklə stress keçirdilər və bu həyəcan nəticəsində dünyasını dəyişdilər.

Allah-təala həqiqətən də bu virusla insanları imtahan etdi.

أَفَلا تَذَكَّرُونَ

«**Heç öyüd-nəsihət almırsınız**?!»[2]

Pandemiya bir çox həqiqətləri üzə çıxardı. Avropada insanlar adi tualet kağızına görə bir-birilərini vəhşi kimi döydülər. Mağazalarda ərzaq üstündə, apteklərdə dərman və maska əldə etmək üçün kütləvi davalar saldılar. İnkişaf etmiş bu dövlətlətlərin bir-birindən külli miqdarda maska oğurluğu belə müşahidə olundu.

---

[1] Məsələn, hər gün ən azı üç dəfə ayaqyolunda yuyunmaq, hər gün ən azı üç dəfə dəstəmaz almaq, həftədə ən azı bir dəfə qüsl (cümə qüslü) etmək, hər gün dişləri yumaq və s.

[2] "Nəhl" surəsi, ayə 17.

Allah-təala zalımların (amerikanların) meydana gətirdiyi virusla dünyanı titrətdi. Həqiqətən də, Amerikanı idarə edənlər axmaq yığınıdır. Qərb mədəniyyəti rəngli kağızdan çəkilmiş bir hasara bənzəyir. Bir az yağış və külək üz gətirsə, məhv olub aradan gedəcəkdir. Onlar insanları Allahdan uzaqlaşdırmaq istəsələr də, buna nail olmadılar. Əksinə, dünya xalqları Allaha bir az da yaxınlaşdılar. Bu virus bir tərəfdən zərər və bəla gətirsə də, digər tərəfdən bir neçə faydası da oldu:

1-Bu virusun yayılması təhlükəsinə görə kütləvi surətdə günah məclisləri, kozinolar, əxlaqsızlıq yuvaları bağlandı və zinanın sayı azaldı.

2-Camaat, məxsusən də varlılar mal, pul, cah-cəlalın onlara kömək etməyəcəyini dərk etdi.

3-Böyük bir güc sayılan amerikanların acizliyi, axmaqlığı və bəşəriyyət düşməni olması dünyaya bir daha isbat oldu.

4-Qiyamət səhnələrindən biri müşahidə olundu.

5-Qədri bilinməyən böyük nemət – “**sağlıq**” hamıya qiymətli göründü.

6-Ailə üzvləri arasında daha da yaxın rabitə qurmaq üçün fürsət yarandı.

7-İnsanlar, dünyada müxtəlif dillərdə Allahı imdada yetişməyə səslədilər.

وَلَقَدْ أَرْسَلنَآ إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَأَخَذْنَاهُمْ بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَتَضَرَّعُونَ

**«Şübhəsiz, Biz səndən əvvəlki ümmətlərə (də Peyğəmbərlər) göndərdik. Beləliklə, onları yoxsulluq və kasıblığa, xəstəlik və cismani əziyyətlərə düçar etdik**

**(ki), bəlkə (Bizim dərgahımıza) boyun əyələr və yalvarıb-yaxaralar**.»[1]

**Əziz bacım!** Yəqin ki "**qurunun oduna yaş da yanar**" məsələni eşitmisən. Əgər yaş yanırsa, özü də qurunun oduna yanırsa, "**quru**" ilə yoldaşlıq etdiyi üçün və nəticədə alışmağa icazə verdiyi üçün yanır. **Yaş,** yanmamaq üçün ya qurunu öz suyu ilə canlandırmalı, ya da "**quru**"dan uzaqlaşmalıdır.

Eləcə də əgər günahkar bir cəmiyyətə bəla gələndə möminləri də tutursa, bu, o günahkarlara görə deyil, əslində möminlərin öz səhvinə görədir. Möminlər, günahkarlara görə deyil, əksinə "**yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmək**" hökmünə əməl etmədikləri üçün bəlaya düçar olurlar.

Məsələnin digər tərəfi isə budur ki, möminlər günah əhli ilə onları günahdan çəkindirmədən rabitədə olduqca, həmin günah həm o möminlər üçün, həm də cəmiyyət üçün adiləşir. Buna görə də gələn **bəla** və **od** hamı üçün gəlir. Burada kimsə digərinin tüstüsünə boğulmur. Allah-təala birinin günahına görə, digərini cəzalandırmaz.[2]

**Əziz bacım!** Diqqətini aşağıdakı ayənin (qısa da olsa) təfsirinə yönəltmək istərdim:

وَاتَّقُواْ فِتْنَةً لاَّ تُصِيبَنَّ الَّذِينَ ظَلَمُواْ مِنكُمْ خَآصَّةً وَاعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ

**«Qorxun (özünüzü hifz edin) o fitnədən (bəla və müsubətdən) ki, təkcə zalımların ətəyindən tutmaz.**

---

[1] "Ənam" surəsi, ayə 42.

[2] Müraciət üçün: "Muddəssir" surəsi, ayə 38.

**(Əksinə, zalımların əməlləri qarşısında susduqlarına görə, bu bəla hamıya çatar). Bilin ki, Allah ağır cəza verəndir**.»[1]

"Fitnə" kəlməsi Qurani-Kərimdə bir neçə mənada işlənmişdir. O cümlədən; şirk, küfr, bəla, müsibət, sınaq, işkəncə və əzab. Bu ayədə isə "**ictimai bəla və müsibətlər**" mənasında işlədilmişdir.

Ayədə "**fitnə törədən işlərdən çəkinmək**" dedikdə, bir qırağa çəkilib guşənişin olmaq nəzərdə tutulmur. Əslində diqqət, insanın ayıq olmasına yönəldilir.

Həzrət Əli **(ələyhissalam)** buyurur: "Fitnələr zamanı özünüzü iki yaşlı dəvə kimi aparın; sizi nə yükləsinlər, nə də sağsınlar."[2]

***Ayədə olan bildirişlər***:

1-Din və İlahi göstərişlərdən boyun qaçırmaq, fitnələrin yaranması və İlahi əzabın nazil olması səbəbidir.

2-Nə fitnə törədin, nə fitnəkarlarla səs-səsə verin, nə də fitnə qarşısında susun!

3-İnsan və cəmiyyətin taleyi onların öz əməllərindən asılıdır.

4-Fərdlər öz əməllərindən əlavə, başqalarının da əməlləri üçün məsuliyyət daşıyır. Çünki bir dəstənin xilaf işi başqaları üçün də təhlükə törədə bilər. Gəmidə öz kayutunu deşən kəs, əslində bütün gəmini batırmaq istəyir.

5-İlahi əzabın şiddət və çətinliyinə diqqət, insanı zülm və günahdan çəkindirir.

---

[1] "Ənfal" surəsi, ayə 25.
[2] "Nəhcul-bəlağə", hikmət 1.

Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** buyurur: "Allah-təala iki şeyə görə bütün insanlara bəla göndərər: 1) Açıq-aşkarda günahın edilməsi. 2) Camaatın bu günah qarşısında susması."[1]

İmam Sadiq **(ələyhissalam)** Müfəzzələ belə buyurur: "Əgər bir kəs səndən zəlzələnin baş vermə səbəbini soruşsa, ona belə cavab ver: Bunlar, insanların qafil olmaması, günahlardan çəkinməsi və Allahın qüdrəti müqabilində özlərini zəif hesab etməsinə görədir. Bəziləri belə deyirlər ki, **əgər dünyanın Mehriban və Rəhimli Yaradanı vardırsa, bəs niyə bu bəlalar və müsibətlər baş verir**? Onlar elə fikirləşirlər ki, insanlar dünyada heç bir çətinlik və bəla görməməlidirlər. Halbuki, əgər bəşəriyyət həmişə rifah içində olsa, lovğalıq, sərxoşluq və rahatlıq onları fəsada (günaha) tərəf çəkər. Nəticədə isə aləmlərin Yaradıcısını, hətta özlərinin insan olduqlarını belə unudarlar. Həqiqət budur ki, insan çətinlik və müsibətlə üzləşəndə onun acısını dadır, moizə olunur, qəflətdən ayılır, öz vəzifələrini anlayır və bunların hamısını dərk edir.

Ey Müfəzzəl! Heç bilirsənmi, bəlaları faydasız və hikmətsiz hesab edən kəslər kimə bənzəyirlər? Onlar, acı və şəfalı dərmanlara əhəmiyyət verməyən, zərərli yeməklərdən uzaqlaşdırılanda qəzəblənən, bekarçılığı və oynamağı sevən uşaqlara bənzəyirlər."

İmam **(ələyhissalam)** sözünün davamında yenə də buyurur: "Əgər səndən - nə üçün bəlalar, həm fasiqlər,[2] həm də möminlər üçün gəlir? - deyə soruşsalar, onlara belə cavab ver: Bu bəlalara salehlərin və fasiqlərin düçar olmasına baxmayaraq, Allah-təala həmin işdə

---

[1] "Nur təfsiri", Muhsin Qiraəti, c. 4, həmin ayənin təfsirində.

[2] Günahkarlar.

onların hər ikisi üçün mənfəət qoymuşdur. Çünki salehlər çətinliyə düşəndə Allahın keçmiş nemətlərini yada salır, Ona şükür edir və öz işlərində səbrə üstünlük verirlər. Fasiqlər isə bu bəlaya tutulmaqla qürurları sınır, az da olsa, qorxuya düşür, günahdan və fəsaddan pəhriz edirlər.”[1]

## *BİR NEÇƏ HƏDİS*

**Əziz bacım!** İslami rəvayətlərdə dünyanın sonuna bir az qalmış Xilaskarın (İmam Zaman **ələyhissalam**) zühur etməsi haqqında bir çox əlamətlərə işarə olunur. Onlardan biri də qadınlara aiddir.

Allahın Elçisi **(salləllahu ələyhi və alihi və səlləm)** buyurur: “Axirəzzamanda ümmətimin qadınlarından bir çoxu paltar geyinməsinə baxmayaraq, çılpaq olarlar. Onlar başlarını (saçlarını) Xorasan dəvəsinin belindəki çıxıntı kimi düzəldib özlərini naməhrəmə nişan verərlər. Siz belələrinə lənət göndərin və deyin ki, namazları qəbul deyil!”[2]

Əziz Peyğəmbərimiz **(salləllahu ələyhi və alihi və səlləm)** yenə də buyurur: “Ümmətimin qadınlarını iki şey həlak etdi: Qızıl və nazik paltarlar.”[3]

İmam Əlidən **(ələyhissalam)** belə nəql olunur: “...Axirəzzamanda qadınlar başını açar, çılpaq və açıq şəkildə gəzər və özlərini camaata nümayiş etdirərlər. Onlar dindən uzaqlaşacaqlar və fitnə-fəsadla məşğul olacaqlar. Şəhvətə meyl edəcək, daim çalçağırla gün

---

[1] “Tohide Mufəzzəl”, səh. 131, 132, 155.
[2] “Kənzul-ummal”, c. 16, səh.392.
[3] “Əmali”, şeyx Mufid.

keçirmək, macəra axtarmaq və başqa ləzzətlərdən istifadə etmək üçün həvəs göstərəcəklər. Onlar əbədi olaraq Cəhənnəmdə qalacaqlar."[1]

Yenə də buyurur: "Zina çoxalanda zəlzələlər də artacaq."[2]

## *ÖRT ÖZÜNÜ, EY QADIN!*

Günah bizim qəddimizi tez bükər,
İman gedən qəlblərə şeytan çökər,
Səma belə buluddan örpək çəkər,
Baş örpəyin hardadı bəs, ey qadın?!

Örtülməyi gündən-günə yubatdın,
Dodaqları boyadın, üz qızartdın,
Bəsdi daha şeytan üçün uzatdın,
Allah üçün dırnağı kəs, ey qadın!

Gözəlliyin cəlb olunar diqqətə,
Nəfsini boğ, gəlməyəsən lənətə!
Ört bədəni girmək üçün Cənnətə!
Cəhənnəmə hicabdı tərs, ey qadın!

Şeytanı qov, yoxsa səni tez ovlar!
Dəryadasan, çox atılar tilovlar,
Ört özünü, yoxsa örtər alovlar!
Gəlməz inan gedən nəfəs, ey qadın!

---

[1] "Mən la yəhzəruhul-fəqih", c. 3, səh.390, hədis 4374.
[2] "Mustədrəkul-vəsail", c. 12, səh. 33.

## *ÖZ DƏYƏRİNİ VƏ QƏDRİNİ BİL!*

**Əziz bacım**! Müəllim dərsdə 100 manatı tələbələrə görsədib dedi: “Bu pulu kim istəyir? Tələbələr hamısı bir ağızdan dedilər: “Mən! Mən! Mən!”

Müəllim əlindəki 100 manatlığı əzik-üzük etdi, sonra yenə soruşdu: “Bu pulu kim istəyir?” Tələbələr hamısı bir ağızdan cavab verdilər: “Mən! Mən! Mən!”

Müəllim əlindəki 100 manatlığı ayağının altına atdı, tapdaladı, çirkləndirdi... Sonra yenə soruşdu: “Hələ də bu pulu istəyən var?” Tələbələr yenə də hamısı bir ağızdan dedilər: “Mən! Mən! Mən!”

Müəllim dedi: “Dostlar, siz hamınız bu gün çox böyük bir dərs öyrəndiniz. Mən bu pulun başına nə gətirdimsə, siz onu istəməyə davam etdiniz. Çünki mənim bu pula etdiyim müsibətlər pulun dəyər və qiymətini qətiyyən azaltmadı. Hərçənd ki, əzildi, tapdalandı, çirkləndi...”

Bəli, biz də çox vaxtlar öz həyatımızda verdiyimiz qərarlara, seçdiyimiz seçimlərə, atdığımız addımlara görə çətinliklərə məruz qalırıq, əzilirik, yerə yıxılıb çirklənirik, simamız nisbətən dəyişir... Və bizə elə gəlir ki, daha heç kimə lazım deyilik, artıq həyatı uduzduq, yaşamaq bizim üçün mənasızdır, artıq dəyərsizik... Amma bunlar səhv və yanlış fikirlər, şeytani vəsvəsələr və puç hisslərdir.

**Əziz bacım!** Bil ki, Allah-təalanın nazil etdiyi müqəddəs Qurani-Kərim nağıl və ya əfsanəvi bir Kitab deyil. Onda olan bütün mətləblərin hamısı haqqdır. Elə isə bu Kitaba inan və Ondan möhkəm yapış!

Qurani-Kərimdə adı çəkilən şeytan (İblis) kimi tanıdığımız bu mənfur məxluq, həmişə pusqudadır və o,

bəndələri azdırmaq üçün Allahın izzət və cəlalına and içib. Elə isə çalış, həmişə günahdan uzaqlaş və günah etmək fikrinə düşdüyün zaman tez Allaha sığın, Onu yada sal və bu ayəni oxu:

أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

**«Məgər (insan) bilmir ki, Allah (onun bütün əməllərini) görür?!»**

**Əziz bacım!** Uca Allah qiymətli və dəyərli olan hər şeyi bir qab içinə qoymuş, gizli yerlərdə gizlətmişdir. Almazlar, yerin dərinliklərində, mirvari isə sədəf qabığının içində qorunulmuş şəkildə olur.

Qızıl, ətrafı mədən və qayalıqlarla örtülü yerlərdən çıxarılır. Sən o qiymətli əşyaya asanlıqla çata bilməzsən. Yollardakı çınqıllara, daşlara toxunacaq şəkildə ona toxuna bilməzsən. Çünki həmin qızıl dəyərlidir.

Yəni sən, bu qiymətli əşyalardan qiymətsizsən ki, səni hər kəs asan şəkildə görüb gözəlliyinə çata bilsin? Üstü açıq olan bir bal qabına milçəklər nəfs saldığı kimi, gözəlliyi aşkarda olan qadına da nəfs salanlar çox olar. Məhz bu səbəbdən də **hicab** - səni qiymətli edər, sənə dəyər gətirər.

**Əziz bacım!** Hicab - qadın əmniyyətinin və gözəlliyinin əvəzolunmaz sığortasıdır.

Hicab – Uca Allahın qadına bəxş etdiyi rəhmət və mərhəmət örtüyüdür.

Hicab – İlahi gözəlliyin nişanəsidir.

İmam Sadiq **(əleyhissalam)** buyurur: "Gözəl geyin, zinətlən! Allah Gözəldir və gözəlliyi sevir. Lakin bu gözəllik pak və halal olmalıdır."[1]

Qadının gözəlliyi onun zahiri çılpaqlığında yox, əksinə onun mənəvi cazibədarlığındadır. Zahiri gözəllik məcazi və keçici, batini gözəllik isə həqiqi və daimidir.

Özün də bilirsən ki, səndə olan bu "**müvəqqəti gözəllik**" çox qalmayacaq və bir gün solacaq, nəhayətdə isə çürüyəcək. Elə isə, öz gözəlliyinlə heç zaman öyünmə!

Sən çox dəyərlisən. Sən çox qiymətlisən. Dünyada heç nə və heç kim sənin qiymət və dəyərini azaltmağa qadir deyil. Ümidsizliklərin və yalançı vəsvəsələrin sənin gələcək arzularına kölgə salmağına imkan vermə!

-Bil ki, sənin Gözəl Allahın var.

-Bil ki, səni Yaradanın var.

-Bil ki, sənə Məhəbbət Edən var.

-Bil ki, sənə Nəzər Edən var.

-Bil ki, sənə Ruzi Verən var.

-Bil ki, səni Qoruyan var. Bil ki,...

Elə isə, dəyər və qiymətini hiss et! Xalis tövbə edərək Allaha tərəf qayıt! O, tövbələri Qəbul Edəndir. Ondan heç vaxt küsmə! O, səni bağışlayacaq. Şad və düzgün yaşamağa çalış! Bil ki, sənin **dəyərin** - özün, varlığın, vücudun, insanlığın və ən əsası isə **HİCABINDIR**.

Allah-təala səni və sənin timsalında olan bütün Azərbaycan xanımlarını doğru yola hidayət etsin və aqibətiniz xeyirli olsun!

---

[1] "Usulu-kafi", c. 6, səh. 438. Şeyx Kuleyni.

## *EY HİCAB!*

**Ey Hicab!** Adi bir parçasan, amma dünyanı lərzəyə gətirmisən. Yumşaq bir parçasan, lakin tikan olub düşmənlərin və səni istəməyənlərin gözünə batmisan. Necə də böyük kəramətlər qoymuş Rəbbim Səndə!

**Ey Hicab**! Sən ismətsən, Sən iffətsən, Sən qeyrətsən, Sən təmizliksən, Sən təqvasan. Allah-təala Səni mömin kişilərin və möminə qadınların qəlblərinin təmizliyi kimi təsvir etmişdir. Səni qorumaq - biz aşiqlərin borcudur. Sən, bizlərə Fatimeyi-Zəhranı **(ələyhəssalam)** və Zeynəbi-Kubranı **(ələyhəssalam)** xatırladırsan. Sən, qanlar bahasına qorunmusan. Səni qoruyanlar zindanda olsalar belə, Səninlə fəxr edirlər və Səni qəlblərində, dillərində və əməllərində yaşadırlar:

**Biz ölərik, əldən hicab vermərik!!!**

***

## *Fərəc duası*

**اَللّهُمَّ كُنْ لِوَلِيِّکَ الْحُجَّةِ بْنِ الْحَسَنِ صَلَواتُکَ عَلَيْهِ وَعَلى آبائِهِ فى هذِهِ السّاعَةِ وَفى كُلِّ ساعَةٍ وَلِيّاً وَحافِظاً وَقائِداً وَناصِراً وَدَليلاً وَعَيْناً حَتّى تُسْكِنَهُ أَرْضَکَ طَوْعاً وَتُمَتِّعَهُ فيها طَويلاً**

*Əllaahummə kulli vəliyyikəl huccətibnil Həsən. Saləvəətukə ələyhi və ələə əəbəəih. Fii həəzihissəəti və fii kulli səəh. Vəliyyəv və həəfizəə. Və qaaidəv və nəəsiraa. Və dəliiləv və əynəə. Həttəə tuskinəhuu ərzakə təv`əə və tumətti əhuu fiihəə taviiləə.*

Allahım! Canişinin və höccətin İmam Zamanın-Sənin salamın, rəhmətin Ona və əcdadlarına olsun-hər an (Onun) Rəhbəri, Qoruyanı və Köməkçisi ol! Onu yer üzündə insanların meyli əsasında hökmranlıq və Ona uzun iqtidar əta et!

# Mündəricat

ÖN SÖZ ....................................................................................3
ÖRTÜNMƏK, ABIR-HƏYANIN NİŞANƏSİDİR................................4
HİCABIN FAYDALARI ..................................................................9
NİYƏ QAÇIRSAN? ......................................................................10
ŞEİR ..........................................................................................12
ALLAHA OLAN MƏHƏBBƏT .......................................................13
ALTI DƏSTƏ QADIN....................................................................16
HƏYA..........................................................................................20
QEYRƏT......................................................................................22
HICAB .................................................................................. 28
BƏHANƏLƏRƏ CAVABLAR .........................................................28
MƏCBURİYYƏT, YOXSA? ...........................................................33
QƏRBİN QADINA VERDİYİ DƏYƏR ...........................................33
HİCAB QADAĞASI VƏ AKSİYALAR ............................................36
İSLAMIN QADINA VERDİYİ DƏYƏR ..........................................41
ŞEİR ..........................................................................................44
NAMƏHRƏMDƏN EHTİYATLI OL! .............................................44
MERAC GECƏSİ QADINLAR HAQQINDA BİR HƏDİS ..................53
HİCABIN ƏHƏMİYYƏTİ ..............................................................57
ŞEİR ..........................................................................................58
EY XANIM, NİKAH ZAMANI ÖZÜNÜ SIĞORTALA! ......................58
ŞƏHİDLƏRİN HİCAB BARƏSİNDƏKİ TÖVSİYƏLƏRİ ....................61
HİCAB MİSALLARDA ..................................................................63
KORONA VİRUSU .....................................................................65
BİR NEÇƏ HƏDİS ......................................................................71
ÖRT ÖZÜNÜ, EY QADIN! ............................................................72
ÖZ DƏYƏRİNİ VƏ QƏDRİNİ BİL! ...............................................73
EY HİCAB! .................................................................................76
Fərəc duası! ...............................................................................77

**İrad və təklifləriniz üçün**: WhatsApp: +989013591253

60*90/16. Бумага офсетная 80г/кв.м. Обложка: 4 полосы,
4+4, мелованная глянцевая 250 г/м2.
Печать офсетная. Усл.печ.лист 8,5. Тираж: 2000 экз.

Отпечатано в ООО "Типография КЕМ"
129626, Москва, Графский перю, д. 9, стр. 2

Тел.: (495) 9335900, e-mail: info@akem.ru